BARIT ÇƏLLƏYİ PARTLAYANDA

Dünya Yaxın Şərqdə baş verənlərlə bağlı bir neçə qütbə bölünüb. İsraili daha çox Qərb dövlətləri dəstəkləyir. Bir sıra müsəlman ölkələri isə Fələstinə tam siyasi dəstək nümayiş etdirirlər.

Niyə iki xalq ümumi sahəsi 25 min kv. km olan bir ərazi üçün amansız savaşa başlayıb? İsraillə HƏMAS arasında baş verən bu gərginlik 1948-ci ildən başlayan siyasi-hərbi qarşıdurmanın davamıdır. 1948-ci ildə Fələstin ərazisində İsrail və Fələstin dövlətinin yaradılması regionda irili-xırdalı çoxlu sayda münaqişənin baş verməsinə səbəb olub.

Qəzza İsrail, Misir və Aralıq dənizi ilə əhatə olunub. Bu sektorda 2006-cı ildə keçirilən seçkilərdə hakimiyyətə HƏMAS-ın silahlı qanadının nümayəndələri gəlib. HƏMAS-ın silahlı qanadına İranın da böyük dəstək verdiyi bildirilir. Qəzza zolağının dənizə çıxış imkanının olması müxtəlif yollarla bura silah gətirilməsinə imkan yaradır.

SƏHİFƏ 6-da

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

14 OKTYABR ŞƏNBƏ 2023 I 38 (4140) Qiyməti - 40 qəpik www.kaspi.az

MDB ÖLKƏLƏRİ İLƏ ƏLAQƏLƏR GENİŞLƏNİR

Keçən il Azərbaycan ilə MDB ölkələri arasında əmtəə dövriyyəsinin həcmi təxminən 30 faiz artıb. Bu il artım 20 faizdən də çoxdur. 2025-ci ildə üçüncü MDB Oyunları da Azərbaycanda keçiriləcək.

MDB LİDERLƏRİ BİŞKEKDƏ TOPLANDI

Bişkekdə Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib. Dövlət başçısı iclasda çıxış edib. Prezident bildirib ki, Qırğızıstan və Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı əldə olunmuş razılaşmalar yerinə yetirilir.

ÜÇÜNCÜ MDB OYUNLARI AZƏRBAYCANDA

Dövlət başçısının sözlərinə görə, humanitar sahə MDB çərçivəsində əsas istiqamətlərdən biridir: "Azərbaycanın 2025-ci ildə üçüncü MDB Oyunlarının keçirilməsi üzrə namizədliyini dəstəklədikləri üçün həmkarlarıma minnətdarlığımı bildirmək istərdim. Əminəm ki, üçüncü MDB Oyunları idman sahəsində əməkdaşlığımızı möhkəmləndirməklə yanaşı, Birlik məkanında uğurlu qarşılıqlı fəaliyyətimizin daha bir nümayişi olacaq".

SƏHİFƏ 2-də

"BİZİM DANIŞMAĞA MÖVZULARIMIZ ÇOXDUR"

Bişkekə səfəri çərçivəsində Prezident İlham Əliyevin rusiyalı həmkarı Vladimir Putinlə görüşü olub. "Bizim danışmağa mövzularımız çoxdur", - Azərbaycan Prezidenti görüşün mətbuat üçün açıq hissəsində deyib.

ADINI TARİXƏ QIZIL HƏRFLƏRLƏ YAZAN LİDER

İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olduğunu 20 illik fəaliyyəti dövründə əməli addımları ilə təsdiqlədi. İşğal altında olan torpaqlarımız onun komandanlığı altında düşməndən təmizləndi, ərazi bütövlüyümüz təmin olundu.

SƏHİFƏ 3-də

XAÇATRYAN MƏHKƏMƏDƏ AĞLADI

Qanunsuz erməni silahlı birləşmələrinin tərkibində 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində soyqırımı törətməkdə təqsirləndirilən Vaqif Xaçatryanın məhkəməsi keçirilib. Meşəli qatili məhkəmə prosesində ağlayıb.

SƏHİFƏ 2-də

XADİMƏLİKDƏN QIRMIZI DİPLOMA GƏLƏN YOL

Aynurə Səfərova: "Qadının tək xilaskarı təhsildir. Qalan hər şey təhsildən sonra gəlir. Üstəlik, universitet tək təhsil vermir, həm də düşüncələrin rəndələnir. Heç kim "çətindir, bacarmaram" deməsin".

SƏHİFƏ 8-9-da

BAKI YENİ FORMAT TƏKLİF EDİR

Azərbaycan hər oyunu öz qaydaları ilə oynamağı yaxşı bacarır. Bu səbəbdən də mövcud şəraitdə sülh prosesinin daha dinamik və nəticəyə aparacaq şəkildə irəliləməsi üçün yeni təkliflər irəli sürür. Təklif edir ki, regionun problemləri region ölkələrinin vasitəçiliyi ilə, ya da birbaşa həll olunsun.

SƏHİFƏ 5-də



HƏM FAYDALI, HƏM TƏHLÜKƏLİ

Payız meyvələrinin şahı olan nar təbii qanartırıcıdır. Yəqin elə bu səbəbdəndir ki, insanlar küçədə satılan nar şirələrinə xüsusi maraq göstərirlər. Ekspertlər isə düşünürlər ki, müəyyən qaydalara əməl etmədikdə küçədə hazırlanan bu şirələr insan sağlamlığı üçün təhlükəli də ola bilər.

SƏHİFƏ 13-də

Əcnəbi turistləri regionlara necə yönəltməli?

Səhifə 11-də

Paşinyan batdıqca batır

Səhifə 7-də

İxrac bazarımızın qırmızı meyvəsi

Səhifə 14-də

Futbolu uçurumdan xilas cəhdi

Səhifə 16-da

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

SOCAR öz standartlarını hazırlayacaq

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) indiki rəhbərliyi qurumun öz standartlarının hazırlanmasını qarşıya məqsəd qoyub. "Report" xəbər verir ki, bunu Bakıda Ümumdünya Standartlar Günü ilə əlaqədar keçirilən tədbirdə Azərbaycan Standartlaşdırma İnstitutunun baş direktoru İlham Bayramov bildirib. "SOCAR kifayət qədər inkişaf etmiş strukturdur, Azərbaycan iqtisadiyyatının dayaqlarından biridir, yeni idarəetmə məktəbidir. SOCAR-da xüsusi standartların tətbiq edilməsi çox vacib məsələdir. Öz standartlarımız olarsa, bu, bizim üçün faydalı olar", - deyə o, əlavə edib.

Foto: Sabir Məmmədov/ Global Media Group

Vaqif Xaçatryan məhkəmədə ağladı

Qanunsuz erməni silahlı birləşmələrinin tərkibində 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində soyqırımı törətməkdə təqsirləndirilən Vaqif Xaçatryanın məhkəməsi keçirilib. "Report" xəbər verir ki, Yasamal Rayon Məhkəməsinin inzibati binasında Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmə tərəfindən ona hüquq və vəzifələri izah edilib. Bildirilib ki, V.Xaçatryanın hüquqlarını Natiq Bəybalayev müdafiə edəcək. Prosesdə dövlət ittihamçıları Baş prokurorun böyük köməkçisi, 3-cü dərəcəli dövlət ədliyyə müşaviri Müqəddəs Sultanov və ədliyyə müşaviri Cövdət Mehrəliyevdir. Prosesdə zərərçəkmiş şəxs qismində isə Xocalı Rayon İcra Hakimiyyətinin nümayəndəsi Murad Hüseynov və Meşəli kənd sakini Hüseyn Hümbətov iştirak ediblər. Çıxış edən dövlət ittihamçısı Müqəddəs Sultanov prosesin məhkəmə baxışına verilməsini təklif edib. Meşəli qatili məhkəmə prosesində ağlayıb. Məhkəmə müşavirəyə gedib. Müşavirədən qayıdan hakimlər məhkəmənin baxış iclasını oktyabrın 17-nə təyin ediblər.

MDB ölkələri ilə əlaqələr genişlənir

Keçən il Azərbaycan ilə MDB ölkələri arasında əmtəə dövriyyəsinin həcmi təxminən 30 faiz artıb. Bu il artım 20 faizdən də çoxdur. 2025-ci ildə üçüncü MDB Oyunları da Azərbaycanda keçiriləcək.

Bişkekdə Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib. Dövlət başçısı iclasda çıxış edib.

AZƏRBAYCAN QIRĞIZISTANDA İNVESTİSİYA LAYİHƏLƏRİNİ HƏYATA KEÇİRMƏYƏ BAŞLAYIB

Prezident bildirib ki, Qırğızıstan və Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı əldə olunmuş razılaşmalar yerinə yetirilir. Azərbaycan Qırğızıstanda investisiya layihələrini həyata keçirməyə başlayıb. Əməkdaşlığı dərinləşdirmək məqsədilə Azərbaycan-Qırğızıstan İnvestisiya Fondu yaradılıb. İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi MDB-nin Fəxri Nişanı ilə təltif edilməsi münasibəti ilə təbrik edib. "Qardaş Özbəkistanla bağlı olan digər mühüm hadisə Səmərqənd şəhərinin 2024-cü ildə "Birliyin mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı qərardır", - Prezident deyib.

ÜÇÜNCÜ MDB OYUNLARI AZƏRBAYCANDA

Dövlət başçısının sözlərinə görə, humanitar sahə MDB çərçivəsində əsas istiqamətlərdən biridir. Azərbaycan bu sahədə əməkdaşlığın inkişafına böyük töhfə verir: "Azərbaycanın 2025-ci ildə üçüncü MDB Oyunlarının keçirilməsi üzrə namizədliyini dəstəklədikləri üçün həmkarlarıma minnətdarlığımı bildirmək istərdim. Əminəm ki, üçüncü MDB Oyunları idman sahəsində əməkdaşlığımızı möhkəmləndirməklə yanaşı, Birlik məkanında uğurlu qarşılıqlı fəaliyyətimizin daha bir nümayişi olacaq".

AZƏRBAYCAN ETİBARLI TƏRƏFDAŞDIR

Dövlət başçısı çıxışında MDB ölkələri ilə iqtisadi və tranzit əlaqələrə xüsusi diqqət ayırıb. Bildirib ki, keçən il Azərbaycan ilə MDB ölkələri arasında əmtəə dövriyyəsinin həcmi təxminən 30 faiz artıb. Bu il artım 20 faizdən də çoxdur.

"Azərbaycan MDB-nin bir çox ölkələri üçün tranzit-nəqliyyat sahəsində etibarlı tərəfdaşdır. MDB-nin bir çox üzv ölkələri Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə Azərbaycanın tranzit imkanlarından fəal istifadə edirlər. Bu iki nəqliyyat dəhlizinin ötürmə qabiliyyətinin genişləndirilməsi üzrə həyata keçirilən və perspektiv layihələr ölkələrimizin nəqliyyat təhlükəsizliyinin möhkəmlənməsi işinə və əmtəə dövriyyəsinin artırılmasına xidmət edəcək", - Prezident deyib.

"BİZİM DANIŞMAĞA MÖVZULARIMIZ ÇOXDUR"

Bişkekə səfəri çərçivəsində Prezident İlham Əliyevin rusiyalı həmkarı Vladimir Putinlə görüşü olub. "Bizim danışmağa mövzularımız çoxdur. Bu ilin həm əmtəə dövriyyəsi, həm sənaye kooperasiyası, həm də nəqliyyat sahəsində əməkdaşlıq üzrə nəticələri olduqca yaxşıdır. Çoxlu layihələr var" - Azərbaycan Prezidenti görüşün mətbuat üçün açıq hissəsində deyib. Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafından, xüsusilə ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə olunub. Regionlararası əməkdaşlıq məsələsinə toxunularaq, Azərbaycanın Rusiyanın 70 regionu ilə uğurlu əməkdaşlığı qeyd edilib, bu xüsusda mütəmadi əsasda keçirilən regionlararası forumun vacib platforma olduğu bildirilib. Söhbət zamanı Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafından, onun potensialının genişləndirilməsindən və bütövlükdə həm dəmir yolu, həm də avtomobil yolları vasitəsilə yükdaşımaların həcminin bu marşrut boyunca artmasından məmnunluq ifadə olunub. Humanitar sahədə əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanıb, bu baxımdan Azərbaycanda rus dilinə qayğı, xeyli sayda ali və orta təhsil müəssisəsində rus dilinin tədrisi qeyd edilib. Söhbət zamanı kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsinin önəminə də toxunulub. Görüşdə Azərbaycan ilə Rusiya arasında hökumətlərarası Dövlət Komissiyasının fəaliyyətinin vacibliyi qeyd olunub.

ADINI TARİXƏ YAZAN LİDER

İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olduğunu 20 illik fəailiyyəti dövründə əməli addımları ilə təsdiqlədi. İşğal altında olan torpaqlarımız onun komandanlığı altında düşməndən təmizləndi, ərazi bütövlüyümüz təmin olundu.

RUFİK İSMAYILOV

Öz mənalı həyatının 60 ilini xalqı üçün yaşayan ümummilli lider Heydər Əliyev Azərbaycanın inkişafı, tərəqqisi naminə böyük xidmətlər göstərib. Xilaskarlıq missiyası ilə xalqını bəlalardan, dövləti müstəqilliyini itirmək təhlükəsindən xilas edən ulu öndər ölkəmizi beynəlxalq birliyin layiqli üzvünə çevirə bilib. Məhz onun istəyi ilə 2003-cü ilin oktyabrında İlham Əliyevin prezidentliyə namizədliyi irəli sürüldü. Bununla bağlı xalqa müraciətində ümummilli lider hələ tamamlanmamış çox perspektivli planlarının olduğunu vurğuladı. Dünyaşöhrətli siyasətçi üzünü həmvətənlərinə tutaraq, onları qarşıdan gələn prezident seçkisində prezidentliyə namizəd, özünün siyasi varisi İlham Əliyevi dəstəkləməyə çağırdı.

İlham Əliyevi yüksək intellektli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən bir şəxsiyyət kimi xarakterizə edən ulu öndər seçiciləri əmin etdi ki, o, xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda böyük işlər görəcək. Görkəmli dövlət xadimi inamla bildirdi ki, özünün axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri Azərbaycan xalqının köməyi və dəstəyi ilə İlham Əliyev başa çatdıra biləcək.

"MƏN ONA ÖZÜM QƏDƏR İNANIRAM..."

"Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyə ümummilli lider Heydər Əliyevin layiqli siyasi varisi kimi cəmiyyətə təqdim etdiyi İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olduğunu ötən dövrdə əməli fəaliyyəti ilə təsdiqlədi. 2003-cü il oktyabrın 15-də Prezident seçilməsindən indiyə qədər ötən 20 ildə İlham Əliyevin həyata keçirdiyi strategiyanın prioriteti ölkəmizin hərtərəfli inkişafı, xalqımızın firavan həyatı, təhlükəsizliyimizin təmini, pozulmuş ərazi bütövlüyümüzün bərpası oldu. Bu illər ərzində uğurla həyata keçirilən regional inkişaf proqramları, genişmiqyaslı abadlıq və quruculuq tədbirləri rayon və şəhərlərimiz arasında fərqi aradan qaldırdı, əhalinin sosial-rifahını yaxşılaşdırdı, yoxsulluq səviyyəsini aşağı saldı.

ƏSAS PRİORİTET TORPAQLARIN İŞĞALDAN AZAD EDİLMƏSİ İDİ

Sözsüz ki, bu illər ərzində Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi daxili və xarici siyasət, atılan hər bir addım Azərbaycanı işğal altında olan ərazilərimizin azadlığına da yaxınlaşdırırdı. Çünki bütün istiqamətlərdə qazanılan uğurlar, əldə edilən nailiyyətlər, diplomatik danışıqlar ərazi bütövlüyümüzün dinc yolla bərpasına, Ermənistan işğalı altındakı torpaqlarımızın, o cümlədən Qarabağın azad olunmasına, məcburi köçkünlərin doğma yurdlarına, isti ocaqlarına qaytarılmasına yönəlmişdi. Lakin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun 30 ilə yaxın davam edən fəaliyyəti heç bir səmərə vermirdi. İşğala məruz qalanla işğal edənə eyni yanaşan, işğalçı Ermənistanı öz adı ilə çağırmaq istəməyən havadarlar Azərbaycanı işğal faktı ilə razılaşmağa məcbur edirdilər.

QƏLƏBƏ SƏHİFƏSİNİ YAZAN RƏHBƏR

44 günlük Vətən müharibəsi dövründə İlham Əliyev həm də ideoloji cəbhədə inanılmaz mübarizə apardı. Lakin missiya tamamlanmamışdı. Xankəndi, Xocalı, Xocavənd, Ağdərə, Əsgəran azan səsinə, Azərbaycan bayrağına həsrət qalmışdı. Prezident kimi fəaliyyətinin 20 - ci ilində İlham Əliyev buna da nail oldu. Cari il sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri sayəsində Qarabağdakı silahlı birləşmələr tərk-silah olundu. Xocalı soyqırımında, Qarabağdakı digər faciələrdə əlləri azərbaycanlıların qanına batmış separatçılar, onların "liderləri" tutularaq hüquq-mühafizə orqanlarına təhvil verildilər. Bununla da Azərbaycanın son 200 illik tarixində qələbə başlıqlı şanlı səhifə tamamlanmış oldu.

İndi ümummilli lider Heydər Əliyevin də ruhu şaddır. Çünki dünyaşöhrətli siyasətçinin axıra çatdıra bilmədiyi taleyüklü planları İlham Əliyev həqiqətən də başa çatdıra bildi. Ulu öndərin düz 20 il bundan öncə xalqa müraciətində yer alan məqamlar, verilən vədlər gerçəkliyə çevrildi. İndi azad Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı ilə yanaşı, Xocalı, Xocavənd, Ağdərə və Əsgəranda da Azərbaycan bayrağı dalğalanır. Bir vaxtlar öz el-obasından didərgin salınan, evləri talan olunan, dağıdılan məcburi köçkünlər indi doğma yurdlarında yenidən tikilən evlərinə qayıdışın xoşbəxtliyini yaşayırlar.

17-Cİ İLİNDƏ AZƏRBAYCANI ƏRAZİ BÜTÖVLÜYÜNƏ QOVUŞDURDU

Amma "Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü heç vaxt danışıqlar predmeti ola bilməz", - söyləyən Prezident İlham Əliyev ölkəmizin ərazi bütövlüyünün tam təmin edilməsinin, işğal edilmiş bütün ərazilərin azad olunmasının zəruriliyini vurğulayır, danışıqlarda prinsipiallıq nümayiş etdirirdi. Bu prinsipiallığın və qətiyyətin nəticəsi olaraq, 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi rəşadətli Ordumuzun tarixi qələbəsi ilə başa çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev prezidentliyinin 17-ci ilində Azərbaycanı ərazi bütövlüyünə qovuşdurdu, xalqımızı dünyada mübariz, döyüşkən və qalib xalq kimi tanıtdı.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

“Qara qızıl”dan “yaşıl enerji”yədək

Cənubi Qafqazda siyasi sabitlik regionun dünyanın ən mühüm iqtisadi qovşaqlarından birinə çevrilməsi perspektivinin açarıdır. Azərbaycan bölgənin iqtisadi lokomotivi olmaqla yanaşı, həm də başlıca təhlükəsizlik qarantıdır. Ermənistanın mifik tarixinin qurbanına çevrilməsi, onu tək Zəngəzur dəhlizinin mümkün dividendlərindən deyil, bütövlükdə regional inkişafdan geri salır.

RÜSTƏM QARAXANLI

Son bir ildə Azərbaycan və Gürcüstan liderlərinin beynəlxalq platformalardakı təmasları ilə yanaşı, ölkələrimizə üç qarşılıqlı səfər baş tutub. 2022-ci il oktyabrın 24-də və bu il oktyabrın 8-də Prezident İlham Əliyevin Gürcüstana, 2023-cü il aprel 7-də isə baş nazir İrakli Qaribaşvilinin Azərbaycana səfərlərində diqqət yetirilməli olan xüsusi məqam onların qısamüddətliliyi və işgüzar statusudur. Prezident İlham Əliyevin son səfəri ümumiyyətlə, bazar gününə təsadüf edib və əvvəlcədən anons olunmayıb. Belə format tərəflərin siyasi və iqtisadi gündəminin maksimum inteqrasiyasını göstərir ki, bu da müştərək qərarların operativ çözümünü tələb edir.

ÜMUMİ QAFQAZ EVİ

Ötən əsrin 90-cı illərinin sonları, 2000-ci illərin əvvəllərində Cənubi Qafqazda iqtisadi əməkdaşlığı müəyyən çərçivəyə sala biləcək müxtəlif modellərin müzakirəsi dəbdə idi. İqtisadi anlaşma regiondakı hərbi-siyasi ziddiyyətlərin yumşaldılması prizmasından təsirli stimul kimi nəzərdən keçirilə bilərdi. Ancaq İrəvan-Moskva-Tehran və Bakı-Tbilisi-Ankara kimi “üçbucaq”ların doğurduğu siyasi reallıq və antoqonist oriyentasiyalar fonunda regionda hərtərəfli iqtisadi əməkdaşlıqdan danışmaq populyar deyildi. Ermənistan qeyri-konstruktiv mövqeyi səbəbindən həm özü transmilli layihələrdən kənarda qalırdı, həm də Azərbaycan və Gürcüstanın iqtisadi kooperasiyasını daha aktual edirdi.

Azərbaycanın erməni işğalına son verməsi və ərazi bütövlüyünü bərpası Ermənistanın ümumqafqaz iqtisadi əməkdaşlıq formatına inteqrasiyası üçün yeni üfüqlər açsa da, İrəvanın özünütəcridə genetik həvəsi bu gözləntilərə ümid bəsləməyin vaxt itkisi olduğunu göstərir. Sürətlə cərəyan edən proseslər və dəyişən reallıq fonunda Azərbaycanın İrəvanın “siyasi naz”ına vaxt itirmək kimi lüksu yoxdur. Bu, Prezident İlham Əliyevin Tbilisidə verdiyi mesajlardan aydın hiss olunur: “Ermənistan istəyərsə, Cənubi Qafqazda formalaşmaqda olan yeni düzəndən iqtisadi divivdendlər əldə edə bilər. Bizim isə əsassız kaprizlərə görə ləngimək fikrimiz yoxdur”.

TRANZİT İMKANLARI GENİŞLƏNDİRİLİR

Prezident İlham Əliyevin təşəbbüsü olan və Azərbaycanın vəsaiti hesabına ərsəyə gələn Bakı-Tbilisi-Qars dəmir yolu “Orta dəhliz”in ana xətti statusunda çıxış etməyə hazırlaşır. Vaxtilə çoxlarının skeptik yanaşdığı bu layihə Rusiya-Ukrayna müharibəsinin logistik marşrutları alt-üst etməsi reallığında Çin-Qərbi Avropa tranzit kəmərlərinin əsas bəndi olacaq. Məhz bu səbəbdəndir ki, xəttin gücünün 5 dəfə artımına start verilib. Azərbaycan Prezidentinin Tbilisidə etdiyi bu anons regionun yaxın illərdə hansı həcmdə yük daşımalarını gözlədiyinin carçısıdır. Ermənistanın Zəngəzur dəhlizinə qarşı tərsliyi və inadı fonunda İran istiqamətinin ehtiyat variant olaraq işə salınmasına baxmayaraq, Bakı-Tbilisi-Qarsın gücünün 5 dəfə artımı ənənəvi Gürcüstan-Azərbaycan marşrutunun əlahiddə aktuallığının göstəricisidir. Bu, qonşu dövlətin Qara dəniz sahilindəki limanlarının rekonstruksiyası və genişlənməsinə doğru perspektivlər açır ki, Azərbaycan bu istiqamətdə də kapital yatırımını nəzərdən keçirir.

YENİ ENERJİ TRENDLƏRİ

Azərbaycanla Gürcüstanı bir-birinə bağlayan daha bir qlobal əməkdaşlıq ölkəmizdə əldə ediləcək bərpa olunan enerjinin Qara dənizin dibi ilə Rumıniya və Macarıstana ixracını nəzərdə tutur. Bakı yaxınlığında, Naxçıvanda və Cəbrayılda işə salınacaq günəş və külək elektrik stansiyalarından əldə ediləcək enerji 2027-ci ildə 3 Gvt gücündə olacaq. Bərpa olunan enerjinin Avropaya nəqli Azərbaycanla Gürcüstanın iqtisadiyyatlarının yeni enerji trendlərinə cavab verməsi ilə yanaşı, ixrac və tranzit potensiallarının bir neçə dəfə artımına yol açacaq.

Cənubi Qafqazda siyasi sabitlik regionun dünyanın ən mühüm iqtisadi qovşaqlarından birinə çevrilməsi perspektivinin açarıdır. Azərbaycan bölgənin iqtisadi lokomotivi olmaqla yanaşı, həm də başlıca təhlükəsizlik qarantıdır. Ermənistanın mifik tarixinin qurbanına çevrilməsi, onu tək Zəngəzur dəhlizinin mümkün dividendlərindən deyil, bütövlükdə regional inkişafdan geri salır. Dəhlizlərdən isə qatarlar yola düşür...

İLK BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK TƏMİNATI

Tarixi qonşuluq və münbit münasibətlər Bakı ilə Tbilisinin Xəzər dənizindən çıxarılan neftin Qərb bazarlarına Gürcüstan ərazisi ilə təhlükəsiz nəqlinə dair razılaşmanı rahatlaşdıran başlıca faktor olub. Bakı-Tbilisi-Ceyhan kəməri qarşılıqlı inteqrasiyanın lokomotivi rolunda çıxış edib. Qaz kəməri, dəmir yolu xətti, indi isə “yaşıl enerji” kabelinin çəklişinə yol açılıb. Gürcüstana üç milyard dollardan çox Azərbaycan kapitalı yatırılıb. SOCAR-Georgia qonşu ölkənin ən iri vergi ödəyicisidir. Bakı-Tbilisi-Cehyan iqtisadi layihə olsa da, Azərbaycan və Gürcüstan kimi gənc müstəqil dövlətlərin ilk beynəlxalq təhlükəsizlik təminatı qismində çıxış edir. Bu çətiri dövlətlər xaricdə himayə axtarmaqla deyil, özləri yaratmağa müvəffəq olublar.

Azərbaycan Gürcüstandan keçən qaz kəməri ilə 2020-ci ildən etibarən Avropaya “mavi yanacaq” ixrac etməyə başlayıb. Bu layihə cəmi bir neçə ay sonra baş verəcək Rusiya-Ukrayna müharibəsi kontekstində zamanını qabaqlamış addım idi. Hazırda kəmərin gücünün iki dəfə artırılması üçün real proseslər gedir. Azərbaycan Transadriatik qaz kəməri vasitəsilə qarşıdakı 25 ildə hər il 10 milyard kubmetr olmaqla İtaliya, Yunanıstan və Bolqarıstana qaz nəql edəcək. Ancaq xüsusilə ötənilki hadisələr onu göstərir ki, Azərbaycan qazının Avropaya ixrac coğrafiyasında və həcmində ciddi dəyişikliklər gözlənilir. Xüsusi interkorrektorlar vasitəsilə “mavi yanacağ”ın Avropanın 10-dək ölkəsinə nəqli aktual və realdır.

Qeyd etmək yerinə düşər ki, Azərbaycan qazı Gürcüstan üçün tək büdcəyə valyuta axını deyil. Həm də iqtisadi və enerji təhlükəsizliyinin təminatçısı rolunu oynayır. Tbilisinin vaxtilə Moskvanın təhdidlərinə sinə gərməsi, rusların enerji ekspansiyasından qurtuluşu məhz Azərbaycan qazı hesabına mümkün olub.

BAKI YENİ FORMAT TƏKLİF EDİR

Azərbaycan hər oyunu öz qaydaları ilə oynamağı yaxşı bacarır. Bu səbəbdən də mövcud şəraitdə sülh prosesinin daha dinamik və nəticəyə aparacaq şəkildə irəliləməsi üçün yeni təkliflər irəli sürür. Təklif edir ki, regionun problemləri region ölkələrinin vasitəçiliyi ilə, ya da birbaşa həll olunsun.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycanın həyata keçirdiyi lokal antiterror tədbirlərindən sonra Cənubi Qafqazda sülh prosesi ilə bağlı yeni imkanlar və reallıqlar yaranıb. Bu reallıqlar bölgənin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirir və hər üç bölgə dövlətinin ümumi maraqlarına xidmət edir. Prosesin yeni mərhələyə keçməsinin qarşısında həmişə olduğu kimi yenə də bir əngəl var - Ermənistan.

Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, rəsmi İrəvanın sülh prosesini pozmaq cəhdləri davamlı və sistemli mahiyyət daşımağa başlayıb. 2020-ci ildən sonra üç formatda aparılan danışıqlar hər dəfə İrəvanın qeyri-konstruktiv mövqe nümayiş etdirməsi səbəbindən müsbət nəticələr verməyib.

İRƏVAN VAŞİNQTONLA PARİS ARASINDA QALIB

Ukrayna-Rusiya müharibəsinə qədər Moskvanın moderatorluğu ilə aparılan prosesdə İrəvan məlum səbəblərdən hansısa məsələlərdə üzərinə götürdüyü öhdəlikləri (əsas şərtlər istisna olmaqla) yerinə yetirirdi. Sonradan Qərb Avropa İttifaqı Prezidenti Şarl Mişelin timsalında Cənubi Qafqazdakı sülh prosesinə fəal müdaxilə etməyə başladı. Aldığı məğlubiyyətin fəsadlarını qismən sığortalamaq imkanı qazandığını düşünən İrəvan Brüssel formatı adlandırılan danışıqlar prosesinə daha çox meyl etdi.

Azərbaycanın qalib dövlət olaraq masadakı şərtləri isə dəyişməz olaraq qalırdı. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı, daxili işlərinə müdaxilə etməməli, kommunikasiyalar açılmalıdır. Bakının diplomatik təzyiqləri və beynəlxalq hüquqa əsaslanan haqlı tələbləri fonunda Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanımaq məcburiyyətində qalıb. Brüsseldə də istədiyini əldə etmədiyini görən Paşinyan hökuməti prosesə ABŞ və Fransanın timsalında erməni lobbisinin güclü olduğu iki ölkənin müdaxiləsi üçün əlindən gələni edir.

ERMƏNİSTAN VƏ QƏRBİN POZULAN PLANLARI

2022-ci ildə sülhün yaxın olduğuna dair dünyada optimist fon yaransa da, proses yenidən Ermənistanın qeyri-real tələbləri ilə pozulmuş oldu. Fransanın müdaxiləsi nəticəsində Laçın yolunda ekofəalların aksiyası və gömrük postunun qurulmasını bəhanə edərək aylarla dialoqdan qaçan İrəvanın bütün təşəbbüsləri bu dəfə Vaşinqtonun dövrəyə girməsi ilə pozuldu. Bir neçə dəfə günlərlə davam edən ikitərəfli danışıqlarda sülh sazişinin bir çox elementləri razılaşdırılsa da, Paşinyan məhz Fransanın təzyiqləri ilə "Dağlıq Qarabağ ermənilərinin təhlükəsizliyi, hüquq və azadlıqlarının təminə beynəlxalq zəmanət" oyununu ortaya atdı. Lakin bir günlük lokal antiterror tədbirləri ilə separatizmin kökünün birdəfəlik kəsilməsi vəziyyəti tamamilə dəyişib.

BİR MASADA AZƏRBAYCANA QARŞI DÖRD TƏRƏF

İndi Qərb, xüsusilə də Fransa könüllü şəkildə Qarabağı tərk edən ermənilərdən istifadə edərək Azərbaycana qarşı "etnik təmizləmə" ittihamlarını ortaya atıb. Milli maraqlarımızı təhdid edən proseslər Azərbaycanın Qranada görüşündən imtinası ilə nəticələnib. Hansı ki, həmin masadakı dörd ölkənin "eyni cəbhədə" Azərbaycana qarşı dayandığı heç kimə sirr deyil. Təəssüf ki, başlanğıcda bitərəfliyini qorumağa çalışan Şarl Mişel də Fransanın məlum anti-Azərbaycan oyununa alət olur. Vəziyyəti düzəltmək üçün yenidən Brüssel formatına qayıdış təşəbbüsünü irəli sürsə də, proqnozlar bu formatın artıq öz imkanlarını tükətdiyini söyləməyə əsas verir. Ermənistan isə Rusiyanın vasitəçiliyi ilə keçirilən danışıqlardan imtina edir. Belədə, faktiki olaraq danışıqların pozulması təhlükəsi yaranır.

VASİTƏÇİLƏRSİZ SÜLH PROSESİ

Lakin rəsmi Bakı hər oyunu öz qaydaları ilə oynamağı yaxşı bacarır. Azərbaycan mövcud şəraitdə prosesin daha dinamik və nəticəyə aparacaq şəkildə irəliləməsi üçün yeni təkliflər irəli sürür.

Prezident İlham Əliyev Gürcüstana işgüzar səfəri zamanı bildirib ki, Ermənistan və Azərbaycan arasında gedən normallaşma prosesində ən düzgün seçim həm tarixi əlaqələri, həm coğrafi amili nəzərə alaraq Gürcüstan ola bilər: "Biz buna hazır olan ölkə kimi Ermənistandan da eyni yanaşmanı gözləməliyik və Ermənistan tərəfindən də razılıq olarsa, dərhal bizim aidiyyəti qurumların rəhbərləri Gürcüstanda həm ikitərəfli, həm üçtərəfli görüşə gələ bilərlər".

Azərbaycan Prezidenti həftə ərzində bu fikirlərini daha da inkişaf etdirərək danışıqların formatına dair növbəti yeni yanaşmasını ortaya qoyub. Dövlət başçısı MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri ilə görüşündə bir daha danışıqlar prosesinə toxunub. Bildirib ki, Bakı sülh sazişi üzərində işi davam etdirməyə hazırdır: "Erməni tərəfinin Rusiya Federasiyasının vasitəçiliyindən imtina edəcəyi təqdirdə, düşünürəm ki, Azərbaycan ilə Ermənistanın xarici işlər nazirləri arasında birbaşa danışıqlar alternativ ola bilər. Hər hansı digər platformalar öz xidmətlərini təklif edən həmin ölkələrin Azərbaycana deyil, həqiqətə, haqlı mövqeyə və beynəlxalq hüquqa münasibəti nəzərə alınmaqla tərəfimizdən təhlil ediləcək".

Dövlət başçısının bu iki açıqlamasını əsas tutaraq deyə bilərik ki, Bakı danışıqlar prosesi ilə bağlı İrəvana hər iki tərəfi razı sala biləcək yeni format təqdim edir. Təklif edir ki, regionun problemləri regionda həll olunsun.

İNDİ TOP ERMƏNİSTANDADIR

Belə vəziyyətlərdə diplomatların hər zaman söylədiyi bir məşhur ifadə var - "indi top Ermənistandadır". Bakının bu təşəbbüsünə İrəvanın hansı reaksiya verəcəyi proseslərin sonrakı axarına ciddi təsir edəcək. Paşinyan problemlərin həlli üçün bölgə dövlətlərinin iştirakı ilə "3+3" formatının reallaşmasına yaşıl işıq yandıracaq, yoxsa yenidən kənar oyunçulara Cənubi Qafqazda sülh prosesini çıxmaza sürükləmək üçün imkanlar yaradacaq? Bu sualın cavabını isə yaxın zamanda biləcəyik.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

BARIT ÇƏLLƏYİ PARTLAYANDA

Dünya Yaxın Şərqdə baş verənlərlə bağlı üç qütbə bölünüb. İsraili daha çox Qərb dövlətləri dəstəkləyir. Bir sıra müsəlman ölkələri Fələstinə tam siyasi dəstək nümayiş etdirsə də, bəziləri ehtiyatlı mövqe sərgiləməyə başlayıblar. Bir qisim dövlətlər isə vasitəçilik missiyasını təklif edərək gərginliyin azaldılması istiqamətində ciddi diplomatik səylər göstərirlər.

AZƏR NURİYEV
azernuriyev@kaspi.az

Oktyabrın 7-dən Yaxın Şərq öz tarixinin ən qanlı və faciəvi günlərini yaşayır. Bölgənin, bütövlükdə dünyanın əzəli problemi – İsrail-Fələstin münaqişəsi yenidən gündəm olub. Fələstinin HƏMAS qruplaşmasının hücumu nəticəsində 1000-dən artıq insan qətlə yetirilib. HƏMAS-ın hücumunda modern dronlardan istifadə edilib, atılan raketlər bir sıra hədəflərə dəyib, israilli general başda olmaqla xeyli hərbçi əsir götürülüb. Bir sözlə, barıt çəlləyi partlayıb və bölgə bir müddət qaranlığa qərq olunacaq, müharibənin ətraf ölkələrə sıçraması təhlükəsi də var.

Qanlı hadisələrə cavab olaraq İsrail də antiterror əməliyyatları həyata keçirir. İsrailin baş naziri Benyamin Netanyahu baş verənləri yeni müharibə adlandırıb və irimiqyaslı hücuma start verib.

Baş verən son qanlı münaqişəni bir növ İsrailin "11 sentyabr"ı da adlandıra bilərik. Məsələnin digər tərəfi ondadır ki, son vaxtlar İsrailin əvvəllər problem yaşadığı Yaxın Şərq ölkələri ilə münasibətləri normallaşmaq üzrə idi. Belə bir vaxtda HƏMAS-ın hücumu təşkil edilir. Eyni zamanda, bu münaqişəni qızışdırmaqla diqqəti Ukraynadakı böhrandan ayırmaq cəhdi də var. HƏMAS-ı təhrik edən kimdir - Rusiya, İran, Çin və yaxud bir başqası?

Benyamin Netanyahu

DÖRD MÜHARİBƏDƏN QALİB ÇIXAN İSRAİL

Niyə iki xalq ümumi sahəsi 25 min kv. km olan bir ərazi üçün amansız savaşa başlayıb? İsraillə HƏMAS arasında baş verən bu gərginlik 1948-ci ildən başlayan siyasi-hərbi qarşıdurmanın davamıdır. 1948-ci ildə Fələstin ərazisində İsrail və Fələstin dövlətinin yaradılması regionda irili-xırdalı çoxlu sayda münaqişənin baş verməsinə səbəb olub. Bu münaqişələrdən dördü daha böyük olmaqla tarixin yaddaşında İsrail-ərəb müharibəsi kimi qalıb. İlk müharibə 1948-ci ildə, ikincisi 1956-cı ildə, üçüncüsü 1967-ci ildə, sonuncusu 1973-cü ildə baş verib. Hər dörd müharibədə İsrail ordusu qalib gəlib. Ərəblərin sıx məskunlaşdığı və Fələstin hökumətinin nəzarətində olan ərazilər son vaxtlar iki hissəyə - Qəzza zolağına və İordan çayının qərb sahili adlanan ərazilərə bölünüb. Qəzza zolağının sahəsi 365 kvadrat kilometrdir və burada təxminən 2,4 milyon insan yaşayır. Qəzza İsrail, Misir və Aralıq dənizi ilə əhatə olunub. Bu sektorda 2006-cı ildə keçirilən seçkilərdə hakimiyyətə HƏMAS-ın silahlı qanadının nümayəndələri gəlib. HƏMAS-ın silahlı qanadına İranın da böyük dəstək verdiyi bildirilir.

Qəzza zolağının dənizə çıxış imkanının olması müxtəlif yollarla bura silah gətirilməsinə imkan yaradır.

ŞABAK VƏ MOSSAD-IN UĞURSUZLUĞU

HƏMAS-ın hücumu İsraili qəfil yaxalasa da, miqyasdan aydın görünür ki, qruplaşmaya dəstək verən mərkəzlər buna uzun müddət hazırlaşıblar. Axı necə olub ki, İsrail kimi təhlükəsizliyə əhəmiyyət verən dövlətin belə bir hücum haqqında əvvəlcədən kəşfiyyat məlumatı olmayıb? Ekspertlər İsrailin daxili kəşfiyyatının (ŞABAK), xarici kəşfiyyat qurumu – MOSSAD-ın bu hücum barədə məlumat ala bilməmələrini uğursuzluq kimi qiymətləndirirlər.

RUSİYA VƏ İRANIN HÜCUMDA ROLU VARMI?

Berlində fəaliyyət göstərən təhlilçi, Rusiyanın Yaxın Şərq siyasətini izləyən ekspert Hanna Notte bildirib ki, son illərdə, hələ Ukraynadakı müharibədən də öncə Rusiya istehsalı olan sistemlərin HƏMAS-ın əlinə düşməsi haqda məlumatlar yayılıb. O zaman İsrail düşündü ki, bu silahlar HƏMAS-ın əlinə İran vasitəsilə düşüb: "Rusiyanın Yaxın Şərqdə baş verənlərdə dolayı rolu varmı? Mən deyərdim var. Onlar başqa bir yerdə böhran və qeyri-sabitlik yarada və Qərb dövlətlərinin, özəlliklə ABŞ-ın diqqətini Ukrayna və NATO-nun şərq sərhədlərindən yayındıra bilsələr, bu, hazırkı geniş geosiyasət oyununda onlara sərf edir".

İsrailə misli görünməmiş hücumun arxasında İranın olub-olmadığı da sual edilir. "Wall Street Journal" qəzetinin xəbərindəki iddiaya görə, adı açıqlanmayan HƏMAS və "Hizbullah" üzvləri məlum hücumu İranın bir həftə əvvəl təsdiqlədiyini bildiriblər. Lakin ABŞ-dən gələn məlumatlarda İranın bu hücumun təşkilində əlinin olduğuna dair heç bir sübut tapmadıqları bildirilir. HƏMAS-ın yüksək rütbəli rəsmilərindən biri Əli Barakənin "Russia Today" telekanalına müsahibəsindəki etirafları da açıq suallar qoyur. O, hücumda İranın birbaşa iştirakını təsdiqləməsə də bildirib ki, HƏMAS tək deyil: "İran bizə silah və pul verir. "Hizbullah" bizimlədir. Rusiya bizə rəğbət bəsləyir. müharibədə tək deyilik".

ANKARANIN VASİTƏÇİLİK TƏKLİFİ

Görünən odur ki, dünya bu məsələdə yenidən üç qütbə bölünüb. İsraili daha çox Qərb dövlətləri dəstəkləyir. Bir sıra müsəlman ölkələri Fələstinə tam siyasi dəstək nümayiş etdirsə də, bəziləri ehtiyatlı mövqe sərgiləməyə başlayıblar. Bir qisim dövlətlər isə vasitəçilik missiyasını təklif edərək, gərginliyin azaldılması istiqamətində ciddi diplomatik səylər göstərirlər. Bu dövlətlərin başında isə Türkiyə dayanır. Ankaranın gərginliyin azaldılmasında müsbət rol oynaya biləcəyini Almaniya kansleri Şolts da etiraf edib. Lakin münaqişənin hərbi fazasının getdikcə yüksəldiyi ərəfədə bu səylərin hansısa müsbət nəticələr verəcəyinə dair proqnozlar da pessimistdir. Tərəflər özləri də indiki mərhələdə "Heç bir danışıqlar olmayacaq" mövqeyindədir.

BATDIQCA BATIR

Ermənistanın baş naziri Nikol Paşinyan ard-arda atdığı səhv addımlarla ölkəsini çətin duruma salıb. Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdıra bilməyən rəsmi İrəvan Rusiya və İranla da gərginlik yaşayır. Hətta bəzi ekspertlər Ermənistan dövlətçiliyinin məhv olacağı barədə siyasi analizlər verməkdən də çəkinmirlər.

FUAD ABASOĞLU

2020-ci il müharibəsindəki acı məğlubiyyətdən hələ də özünə gələ bilməyən Ermənistanın baş naziri Nikol Paşinyan atdığı səhv addımlarla həm erməni xalqını, həm də dövləti uçuruma aparır. Təsadüfi deyil ki, ötən həftəsonu Ermənistanda keçirilən sorğularda yerli sakinlər özlərini təhlükəsiz hiss etmədiklərini, günahı isə birbaşa Nikol Paşinyanda gördüklərini qeyd ediblər.

RUSİYANIN ORBİTİNDƏN ÇIXMA CƏHDİ

Uzun müddətdir baş nazir Nikol Paşinyan Rusiya ilə münasibətləri daha da gərginləşdirərək qopma həddinə gətirib. İstər Roma Statutunun Ermənistan parlamentində ratifikasiyası, istər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) təlimlərində iştirakdan imtina, istərsə də təhlükəsizlik məsələsində Fransaya sığınma cəhdi rəsmi Moskvada birmənalı qarşılanmır. Rusiyanın rəsmi qurumları bəyanatlarında Ermənistanı müttəfiq və dost ölkə adlandırsalar da, Roma Statutunun ratifikasiyası və Ermənistanın baş nazirinin həyat yoldaşı Anna Akopyanın Kiyevdə Ukrayna prezidenti Volodimir Zelenski ilə bol-bol foto çəkdirməsi rəsmi Moskva tərəfindən qeyri-dost addım adlandırılıb. Bu isə münasibətlərin daha da gərginləşməsindən xəbər verir. Hətta bəzi rusiyalı ekspertlər Ermənistan dövlətçiliyinin məhv olacağı barədə siyasi analizlər verməkdən də çəkinmirlər.



LARSDA İLİŞƏN ERMƏNİ KONYAKI

Təbii resurslar baxımından kasıb, iqtisadiyyatı sıfır səviyyəsində olan Ermənistanın əsas ticarət tərəfdaşı məhz Rusiyadır. Münasibətlərdəki gərginlik erməni konyak istehsalçılarını çətin vəziyyətə salıb. Ermənistanda istehsal edilən konyakın 95 faizi Rusiyaya ixrac edildiyi halda, artıq uzun müddətdir Lars keçid məntəqəsində 100 yük maşını ilişib qalıb. Bu isə milyonlarla dollar deməkdir və Rusiya tərəfi müxtəlif bəhanələrlə yüklərin keçidini ləngidir. Bir yük maşınının bir gün gecikməsi sahibkara 1000 ABŞ dollarından baha başa gəlir. Rusiya tərəfi isə yoxlamalar aparıldığını, bu prosedurun 60 günədək davam edəcəyini bildirir. Əslində Rusiya son vaxtlar Fransaya sığınan Ermənistana dərs verir.

Aİİ VƏ RUSİYA QAZINDAN İMTİNA

Uğursuz nəticələnən və hətta dünyanın aparıcı KİV-ləri tərəfindən Azərbaycan və Türkiyənin iştirakı olmadığı üçün nəticəsiz hesab edilən Qranada görüşündən sonra Ermənistanın siyasi kulislərində Avrasiya İqtisadi İttifaqından (Aİİ) çıxmaq və Rusiya qazından imtina kimi söhbətlər dolaşır. 10 ildir Aİİ hesabına iqtisadiyyatını ayaqda tutmağa çalışan Ermənistan üçün bu qurumdan çıxmaq intihara bərabər bir addım kimi qiymətləndirilir. Eyni zamanda, rus qazından imtina da Ermənistan üçün faciəvi nəticələrə səbəb ola bilər. Amma Ermənistanda bunları hesablayacaq siyasi institutun olmadığı hakim partiyanın deputatı Qaqik Melkonyanın açıqlamasından bilinir. Onun sözlərinə görə, Ermənistan istəsə yüz yerdən qaz ala bilər. Borc ucbatından ölkənin dəmir yolunu Rusiyaya peşkəş verən Ermənistan görəsən hansı pul ilə və hansı ölkədən qaz almaq niyyətindədir?

İRANLA MÜNASİBƏTLƏRİN GƏLƏCƏYİ XOŞ DEYİL

Ermənistan hökuməti regionda İrana sığınsa da, atdığı səhv addımlar rəsmi Tehranın da qıcıqalanmasına səbəb olur. İran hələ ki, kəskin bəyanatla çıxış etməsə də, ritorika getdikcə dəyişir. Əvvəlcə Avropa İttifaqı müşahidəçilərinin sərhədə yerləşdi-rilmə-sinə rəsmi Tehran "xarici qüvvələrin regionda olması arzuolunan deyil" bəyanatı ilə cavab vermişdi. Sentyabr ayında isə ABŞ hərbçiləri ilə təlimlər münasibətlərə başqa bir kölgə saldı. Bu hadisədən sonra İranın ritorikası bir az da ağırlaşdı. Təsadüfi deyil ki, Azərbaycanın 19 sentyabr tarixində başlatdığı lokal antiterror tədbirlərinə İran rəsmiləri "Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir" bəyanatı ilə cavab verdilər.

HİNDİSTAN, İRAN VƏ ERMƏNİSTANIN YOL LAYİHƏSİ

Ermənistan can verən iqtisadiyyatını dirçəltmək üçün regiondakı kommunikasiyaları blokdan çıxarmaq, Zəngəzur dəhlizinin reallaşmasına töhfə vermək əvəzinə, başqa xam xəyallara düşərək daha bir səhv addım atıb. Hindistan, İran və Ermənistan birlikdə yeni dəhliz inşa edərək Avropaya çıxmaq barədə yol xəritəsi hazırlayıblar. Amma hazırladıqları layihə ekspertlər tərəfindən qeyri-ciddi və perspektivsiz hesab edilib. Yəqin elə bu səbəbdəndir ki, layihə bir neçə ildir müzakirə olunsa da, nə Ermənistan, nə İran, nə də Hindistan əlini cibinə salaraq yolların çəkilməsi üçün pul xərcləmək niyyətində deyil. Tərəflər işi bir-birinin üstünə atmaqla kifayətlənirlər. Çünki yolun keçdiyi ərazi dağlıqdır və uzun aylar aramsız qar yağışı səbəbindən keçilməz olur. Eyni zamanda, həmin yol Gürcüstandan da keçməli və Türkiyə ərazisinə çatmalıdır. Gürcüstan və Türkiyənin Azərbaycanla münasibətlərini nəzərə aldıqda, bu layihənin reallaşması mümkünsüz görünür.

ERMƏNİSTANIN ATACAĞI DÜZGÜN ADDIM

Ermənistanın can verən iqtisadiyyatını dirçəltmək, regiondakı qlobal layihələrə qoşulmaq üçün atacağı yeganə düzgün addım Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq, kommunikasiya xətlərini açmaqdır. Bu, ilk növbədə Ermənistana lazımdır. Azərbaycan və Türkiyənin alternativləri var və istənilən anda bu layihələri Ermənistansız da reallaşdıra bilərlər.

UŞAQ BAXICISI, DÜKANDA GECƏ NÖVBƏTÇİSİ, EVLƏRDƏ TƏMİZLİKÇİ İŞLƏYƏ-İŞLƏYƏ ARZULARINI ÇİN EDƏN XANIMIN HEKAYƏSİ

XADİMƏLİKDƏN QIRMIZI DİPLOMA GƏLƏN YOL

SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Aynurə Səfərova: "Qadının tək xilaskarı təhsildir. Qalan hər şey təhsildən sonra gəlir. Üstəlik, universitet tək təhsil vermir, həm də düşüncələrin rəndələnir. Heç kim "çətindir, bacarmaram" deməsin. Mən şor-çörək yeyə-yeyə, fəhləlik edə-edə bacardımsa, hər kəs bacarar".

Ohəyatında inqilab edən xanımlardandır. 25 yaşında, 15 yaşından etibarən ara verdiyi təhsilinə davam edib. Xadimə, uşaq baxıcısı, dükanda gecə növbətçisi, evlərdə təmizlikçi işləyə-işləyə həm ailəsinə dəstək olub, həm də arzuladığı qırmızı diploma sahib olub. Müsahibimiz öz həyat hekayəsi, mübarizliyi ilə təhsil almaq istəyən, "Daha gecdir" deyən hər kəsə, xüsusilə də xanımlara örnək olan Aynurə Səfərovadır.

"ÇÖRƏYİN DADI HƏLƏ DAMAĞIMDADIR"

1990-cı ildə Ağsu rayonunun Daşdəmirbəyli kəndində anadan olub. Uşaqlığı yaddaşında kasıblıq, çətinlik dövrü kimi qalıb. Məhz kasıblığa görə də 9-cu sinifdən təhsilini yarımçıq qoyub: "O illəri unuda bilmirəm. Mən uşaqlıq deyiləndə ancaq aclıq xatırlayıram. O kəndin sakinləri də bilər, çox kasıb idik. Anam cehizlərini satıb un alırdı. 1995-ci ildə yediyim çörəyin dadı hələ damağımdadır. Anam acı mayadan çörək bişirmişdi. Dadı həddindən artıq turş idi, amma evdə heç nə olmadığı üçün yeyirdik. Məsələn, bizim heç vaxt oyuncağımız olmayıb. Palçıqdan qablar düzəldir, onunla oynayırdıq".

"QIZIM, SƏNİ OXUTMAĞA MADDİ GÜCÜM YOXDUR"

Aynurə orta məktəbdə oxuduğu dövrlərdə də anasına kömək etmək üçün dərsdən sonra pambıq, günəbaxan sahələrinə gedərmiş. Bununla belə, bacısı ilə birlikdə kənddə "yaxşı oxuyan Səfərova bacıları" kimi tanınıblar: "Nə qədər işləsək də, məktəbdə yaxşı oxuyurduq. Atam hər dəfə valideyn iclasına qürurla gəlirdi. Deyirdi ki, nə olursa-olsun, sizi oxudacağam. Ali təhsilli olmağımız atamın arzusu idi".

Lakin atasının erkən ölümü çətin həyatlarını daha da çətinləşdirib və Aynurə təhsilini yarımçıq qoymaq məcburiyyətində qalıb: "Atam traktor sürücüsü idi. Ağsunun bir çox kəndlərinin torpaq sahələrini o şumlayırdı. Amma xəstə idi. Heç vaxt unutmuram, 25 may son zəng günü idi. Anam böyrək həkiminə, atam mədə həkiminə getmişdi. Atam xəstəxanadan gəldikdə gördük ki, ağrıyır. Uşaqlıqda həmişə məni qarnına çıxarır, deyirdi ki, "Qarnımda şar var, o partlayanda mən öləcəyəm". Düşünürdüm ki, zarafat edir. Son zəng mərasimindən evə gəldik, atam dedi ki, qızım, şar partladı, əmini çağır. Atamı qırmızı taksiylə apardılar, bir də qayıtmadı. Atam öləndə 11 yaşım var idi. 9-cu sinfə qədər çox böyük əziyyətlə gəldik. Nə geyimimiz olurdu, nə də yeməyimiz. Qohumlarımız da kömək etmədi, tək qaldıq. Sonra anam məni məktəbdən çıxardı, Bakıya gəldik. Yadımdadır, məktəbdən çıxanda direktor şəhadətnaməmi vermirdi. Deyirdi ki, "Mən bu şagirdi itirə bilmərəm, aparacaqsınız, oxutmayacaqsınız". Ümidim var idi ki, şəhadətnaməmi alıb, Bakıda kollecdə oxuyaram. Lakin anam dedi ki, qızım, səni oxutmağa maddi gücüm yoxdur. Məktəblə vidalaşdım və Bakıda işləməyə başladım".

"10 İL SONRA TƏHSİL HƏYATIMA BAŞLADIM"

Anası xadimə, özü isə 15 yaşında Bakıda kisə düzəldilən sexdə işləyir: "Bir həftə gecə, bir həftə gündüz növbəsində işləyirdim. Hələ də əllərimdə oranın izləri var. Sonra qusçuluq fermasında bacılarımla birlikdə həm yaşayır, həm də işləyirdik. 10 il belə işlərdə çalışdım. Daha sonra çox ağır xəstəlik keçirdim, 6 ay xəstəxanada yatdım. Düşünürdüm ki, mən kiməsə pislik etməmişəm, Allah mənə bu xəstəliyi veribsə, mütləq bir səbəbi var. Xəstəxanada bir qızla tanış oldum və təhsil həyatıma başlamaq üçün 10 il sonra özümdə güc tapdım".

Müsahibimizin palata yoldaşı məktəb qəzetlərindən birində işləyir, yaxşı göstəriciləri olan şagirdlərlə müsahibələr edirmiş. Aynurə də rəfiqəsinə kömək etmək üçün o müsahibələrə yollanıb. Deyir ki, elə bil o xəstəlik mənə şillə kimi dəydi ki, ayıl, artıq təhsil almalısan: "Müsahibə müddətində o uşaqlar danışdıqca, mənə motivasiya verirdi. Düşünürdüm ki, bu uşaqlar bacarırsa, mən də bacararam. 25 yaşım var idi. O qədər həvəslənirdim ki... Evə gəldim, dedim ki, "Ana, mən oxuyacam". Anam yenə dedi ki, məni oxuda bilməyəcək. Təsəvvür edin, attestatım belə yox idi. Amma fəhləlik etdiyim günlərdə belə, hər dəfə metronun "Elmlər Akademiyası" stansiyasına çatanda, gözlərimi yumurdum ki, bir gün buradan tələbə kimi çıxacağam".

> *Təsəvvür edin, attestatım belə yox idi. Amma fəhləlik etdiyim günlərdə belə, hər dəfə metronun "Elmlər Akademiyası" stansiyasına çatanda, gözlərimi yumurdum ki, bir gün buradan tələbə kimi çıxacağam.*

"AİLƏ QURACAQSAN, TƏHSİL ALMAQ YADINA DÜŞMƏYƏCƏK"

Anasının Aynurəni oxutmağa maddi gücü olmasa da, ona mənəvi dəstək olub. İşlədiyi yeməxxananın müdirinin qohumu o vaxtlar Bakı Dövlət Peşə Təhsil Mərkəzində direktor olub. Onun istiqamətləndirməsi ilə Aynurə burada təhsilini davam etdirib: "Anam bir illik ixtisas seçməyimi məsləhət gördü. Amma mənim məqsədim universitet olduğu üçün attestat almalı idim. Hətta bir müəllim anamla birlikdə mənə "Bu yaşda nə dərs oxumaq, ailə quracaqsan, təhsil almaq yadına düşməyəcək" dedi. Mənə mane olmamaları üçün ixtisas seçməyə tək getdim və 3 illik Peşə Təhsil Mərkəzinə qəbul oldum".

"QRUP YOLDAŞLARIMIN 15, MƏNİM 25 YAŞIM VAR İDİ"

2005-ci ildə məktəblə vidalaşan həmsöhbətimiz 2015-ci ildə yenidən parta arxasına keçir: "Təsəvvür edin, qrup yoldaşlarının 15, mənim 25 yaşım var idi. Adaptasiya ola bilmir, uşaqlarla necə davranacağımı bilmirdim. Sonra sinif nümayəndəsi oldum. Mən də onlarla uşaq kimi oldum. Bütün tədbirlərdə, xüsusilə vətənpərvərlik tədbirlərində aktiv iştirak edirdim. Hətta o zamanki direktor Fikrət müəllim mənə "əsgər qızım" deyirdi".

"EVDƏN ŞOR-ÇÖRƏK GƏTİRİR, SİNİFDƏ GİZLİN YEYİRDİM"

Maddi dəstəyi olmadığı üçün peşə təhsil mərkəzində oxuduğu vaxtlarda da günlük işlərdə işləyib: "Məsələn, Yeni il qabağı marketdə "qar qız" kimi işləyirdim. Günümüzə 10 manat verirdilər, səhərdən axşama kimi dayanır, ayaqlarım donurdu. Hətta bir gün məni fəxri fərmanla təltif edəcəkdilər, işdə olduğum üçün auditoriyada fəxri fərmanımı ala bilmədim. 50 manat təqaüd alır, yol pulumu o təqaüdlə ödəyirdim. Dərsə getmək üçün lazım olan 4 nəqliyyat vasitəsinin ikisini istifadə edir, piyada gedirdim ki, maksimum az xərcim çıxsın. Hər gün Qala kəndindən Əhmədliyə gedirdim. Evdən şor-çörək gətirir, sinifdə gizlin yeyirdim. Amma müəllimlərimin sevimli tələbəsi olmağı bacarmışdım".

O MÖCÜZƏ BAŞ VERDİ...

Aynurə çətinliklə olsa da, universitet xəyalına addım-addım yaxınlaşırdı. Lakin hazırlaşmaq qərarına gələndə nə dərs vəsaiti var idi, nə də müəllim yanına getməyə pulu: "Sosial şəbəkədə qadın qrupunda status yazdım. Oradakı xanımlar mənə kitab verdi. Yenə də həmin qrupdan Azərbaycan dili, ədəbiyyat fənnindən bir müəllim məni pulsuz hazırladı. Hətta bəzən müəllimim mənə xərclik də verirdi. Sonra tarix müəllimim məni təmənnasız hazırlayacağını bildirdi. İngilis dilindən isə bir xanım özü mənə aylıq ingilis dili fənnindən hazırlığın ödənişini edirdi ki, oxuyum. İmtahan verdim və o möcüzə reallaşdı. Bakı Dövlət Universitetinin kitabxana və informasiya ixtisasına qəbul oldum. Müəllimlərimin üzərimdə çox böyük əziyyətləri var. Onlara söz verdim ki, mən də işləyəndə imkanı olmayan şagirdlərin hazırlığına kömək edəcəyəm. Məncə, yaxşılıq da yoluxucudur. Onlar mənim həyatıma toxundu, mən də davam etdirəcəyəm".

Fotolar: Rüfət Mikayılov/Global Media Group

"SƏHƏR DƏRSƏ, GÜNORTA EV TƏMİZLİYİNƏ GEDİRDİM"

Aynurə universitetdə oxuya-oxuya da işləməyə davam edib: "Səhər dərsə gedir, günortadan axşama qədər işlədiyim yerdə uşağa, ev işlərinə kömək edirdim. Hətta universitetə qəbul xəbərini də ev təmizliyinə gedəndə almışdım. Daha sonra bir marketdə xadimə kimi də işlədim. Bir qarın ac, bir qarın tox olurdum. Bununla belə, qışda soyuq havada qalan xəstə pişiyə də sahibləndim. Yeməyimi onunla böldüm. Bəzən düşünürəm ki, mən dilsiz heyvana ev oldum, Allah da məni yaxşı insanlarla qarşılaşdırdı".

Bakalavrı bitirdikdən sonra bununla kifayətlənməyib, magistraturaya hazırlaşıb: "Yenə də işləyə-işləyə oxudum, magistraturaya qəbul oldum. Həm bakalavrı, həm magistraturanı əla qiymətlərlə bitirdim. Hazırda da qırmızı diploma namizədəm. Hətta dövlət qulluğu imtahanından da müsahibə və test mərhələsini yüksək balla keçdim. 20 baldan 18 bal topladım. Seçdiyim vakansiyaya 404 insan müraciət etmişdi, yeganə 18 bal məndə idi. Hazırda Mədəniyyət Nazirliyinin ehtiyat kadrlar siyahısındayam. Ümid edirəm dövlət qulluqçusu olmaq arzum da reallaşacaq".

"BİL Kİ, QIZIN BACARDI..."

Aynurə tək öz arzusunu deyil, 11 yaşında itirdiyi atasının da arzusunu reallaşdırıb: "Atamın qəbrinin üstünə nadir hallarda gedirəm. Çünki söz vermişəm ki, onu diplomlarım, iş vəsiqəmlə ziyarət edəcəyəm və deyəcəyəm ki, ata, mən sənin arzunu yerinə yetirdim. Bil ki, qızın bacardı".

"EVLİLİK GÖZLƏYƏ BİLƏR, TƏHSİL İSƏ YOX"

Aynurə özü kimi arzuları yarımçıq qalan, xilas yolunu ailə qurmaqda görən həmcinslərinə də səsləndi. Deyir ki, ona da dəfələrlə, "Ailə qur, sənin də arxa-dayağın olsun, təhsil almaq bu yaşdan sonra mümkün deyil" deyənlər olub: "Evlilik gözləyə bilər, təhsil isə yox. Hazırda 34 yaşım var və ötən il öz sevib, seçdiyim insanla nişanlandım. Bu yaşıma qədər çox elçi gəlib və anam da məni vermək istəyib. Amma məqsədim qəti idi və mən oxumalı idim. Xüsusilə, mənim vəziyyətimdə olan xanımların əksəriyyəti ailə qurmağa xilas olmaq kimi baxırlar. Heç bir xanım gələcəyini hansısa kişiyə etibar etməməlidir. Nə qardaş, nə ər, nə ata... Atam 33 yaşında rəhmətə gedib. Anam gənc yaşında 4 uşaqla tək qalıb. Həyatını necə əminliklə başqasına etibar edə bilərsən? Qadının tək xilaskarı təhsildir. Qalan hər şey təhsildən sonra gəlir. Üstəlik, universitet tək təhsil vermir, həm də düşüncələrin rəndələnir. Heç kim "çətindir, bacarmaram" deməsin. Mən şor-çörək yeyə-yeyə, fəhləlik edə-edə bacardımsa, hər kəs bacarar. İnsan hər şeyə qadirdir, əsas istəməkdir".

“O İNSANLAR UĞURLUDURLAR Kİ...”

Şahbaz Xuduoğlu: “Mən Üzeyir Hacıbəyovun ev muzeyinə gedirəm, amma orada baxmağa normal bir eksponat tapa bilmirəm. Cəfər Cabbarlının ev muzeyi də o vəziyyətdədir”.

HAZIRLADI
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

“Məktəbdə” 20-ci buraxılışında daha çox təhsilin insanların həyatındakı roluna, mütaliənin əhəmiyyətinə, kitabın dünyanı dəyişdirmək gücünə yer verdi.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə “Kaspi” qəzetinin 214 saylı tam orta məktəbdə baş tutan görüşünün növbəti qonağı - tanınmış naşir, yazıçı və tərcüməçi Şahbaz Xuduoğlu məktəbdəki görüşünü daha çox canlı diskussiya üzərində qurdu.

AĞLINIZA VƏ İNTUİSİYANIZA GÜVƏNİN

“Məktəbi qurtarandan sonra kim olmaq istəyirsiniz?” - deyə görüşün əvvəlində zala ünvanlandığı suala şagirdlər arasından ”tərcüməçi”, “proqramçı”, “həkim”, “kosmetoloq” və s. peşələrin adları eşidildi.

Ş.Xuduoğlu “Dünyada yaşayan insanların çoxu, hətta bu rəqəmi 80 faiz deyirlər, nə istədiklərini bilmir. Amma insanlar nə istədiklərini biləndə çox şeyə nail olurlar”, - deyə məktəblilərə tövsiyələrini söylədi: “Böyük Britaniyanın keçmiş baş naziri Toni Bleyer vaxtilə baş nazirin oturduğu binanı göstərərək “mən bu binada baş nazir kimi oturacağam” demişdi. O, iki dəfə Birləşmiş Krallığın baş naziri oldu. Siz də həmişə ağlınıza və intuisiyanıza güvənin. Əvvəllər həkimlərin çoxunun tibbi təhsilləri yox idi, onlar əməliyyatları intuisiyalarının gücü ilə edirdilər. Siz də özünüzə güvənin. İnsanı irəli aparan öz hünəridir”.

NİYƏ KİTAB OXUYURUQ?

Mütaliə etməyin əhəmiyyətindən danışan qonaq “Sizcə biz niyə kitab oxuyuruq?” - deyə məktəblilərə sual ünvanladı. Uşaqlar “dünyagörüşümüzü artırmaq üçün”, “dünyadan ibrət götürmək üçün”, “maariflənməkdən ötrü” - deyə müxtəlif cavablar verdilər. Qonaq “böyük, qalın kitabları oxumaqdan çəkinməyin. Ola bilər ki, əvvəlcə sizə maraqsız görünsün, amma sonrakı səhifələrdə mahiyyəti anlayacaqsınız. Kitablar fikrinizi formalaşdıracaq, sizə mədəni qida verəcək. Kitab insanı daha böyük edir. Dünya kitab çapından sonra dəyişib, inkişaf edib” dedi. Naşir məktəblilərə məsləhət gördü ki, “Hər şey sənlə başlar”, “O qurbağanı ye”, Harri Potter haqqında kitabları oxusunlar: “Bu əsərləri oxuyun və dünya dilində danışmağı bacarın. Ünsiyyətcil olun, qərar qəbul edəndə cəsarətli görünün, insanlara yardım edin, özünüzü sevin”. Qonaq şagirdlərə muzeylərə getməyi məsləhət gördü: “O adamları başa düşə bilmirəm ki, yaşadıqları yerin mədəni mühitinə qarışmırlar. Şəhərdə keçirilən mədəni tədbirlərdə iştirak etmirlər. Praqada Kafkanın muzeyi şəhərin köhnə tarixidir. Kafkanın muzeyinə baxarkən o dövrün mədəni mühitinə düşürsən. İstanbula yolunuz düşəndə Orhan Pamukun “Məsumiyyət muzeyi” əsəri üzərində yaranan “Məsumiyyət muzeyi”nə gedin. Bu muzey o vaxtı, əsərdə təsvir olunan hadisələri əks etdirmək baxımından çox gözəldir. Çox istərdim ki, bizdə də Mikayıl Müşfiqin belə bir muzeyi olsun. Mən Üzeyir Hacıbəyovun ev muzeyinə gedirəm, amma orada baxmağa normal bir eksponat tapa bilmirəm. Cəfər Cabbarlının ev muzeyi də o vəziyyətdədir”.

> “Kitablar fikrinizi formalaş-dıracaq, sizə mədəni qida verəcək. Kitab insanı daha böyük edir. Dünya kitab çapından sonra dəyişib, inkişaf edib.”

“DÜŞÜNÜRDÜM Kİ, BU, VALİDEYNLƏRİM TƏRƏFİNDƏN ATILAN SƏHV ADDIM İDİ”

“Uşaqlığınız necə keçib?” - deyə şagirdlərdən birinin sualına cavab olaraq naşir öz həyat yolunu vərəqlədi: “Mən Yardımlının Hamarkənd kəndində doğulmuşam. 9 yaşında Bakıya gəlmişəm. Bakıda internat məktəbində oxumuşam. Düşünürdüm ki, bu, valideynlərim tərəfindən atılan ən səhv addım idi. “Bu yaşda mütləq onların yanında olmalıyam” düşünürdüm. Amma sonradan dərk etdim ki, onlar düz edib. Mən internatda oxuyub təhsil almışam, kollektivdə yaşamağı oyrənmişəm, əsgər getmişəm. Orada bütün uşaqların çətinlikləri vardı. Səhər 6-da yuxudan oyadır, həyətdə qaçırırdılar. O çətinliklər mənə çox şeyi öyrətdi. İndi mən hər gün səhər 4-də yuxudan durub bəzi qeydlərimi edirəm. Saat 5-6 arası kitab oxuyuram. 6-dan 7-ə kimi parkda qaçıram. Parkda yalnız yaşlı adamları görürəm, gəncləri yox. Amma siz indidən idmanla, gəzinti ilə bədəninizi formalşadırmalısınız. İndi sizin keçid yaşınızdır. Siz hamınız hansı qərarları verəcəyinizi düşünür, tərəddüdlər edir, kimlərisə - bəzən valideyninizi, bəzən doğulduğunuz ölkəni qınayırsınız. Amma heç kəsi qınamaq lazım deyil. Əgər siz bu gün məktəbdə-sinizsə, bundan maksimum faydalanmaq lazımdır. Sizin bundan sonra gələn həyatınızda buradakı oxumaq imkanını heç kim verməyəcək”.

Fotolar: Rüfət Mikayılov/Global Media Group

İNSANLARLA KİTABLAR ARASINDAKI UÇURUM

Şagirdlərdən biri “Ana dilimizdə oxumaq üçün hansı kitabı məsləhət görərsiniz?” - deyə sual ünvanladı. Cavab isə belə oldu: “Bill Qeyts dünyanın ən zəngin adamlarından biridir. O, hər ilin bir ayını mütaliəyə həsr edir. Bizdə isə insanlarla kitablar arasında bir uçurum var. Mən onlara “kitab oxuyun” deyəndə, elə bilirlər ki öz nəşrlərimi satmaqdan ötrü deyirəm. Kitab satmaq mədəniyyəti aşılamaqdır. Siz kitab oxusanız öz biznesinizi daha yaxşı qura bilərsiniz. Mütaliə edib daha çox biliklər qazanarsınız”.

UZUN QIŞ GECƏLƏRİNİN XATİRƏSİ...

“Siz özünüz hansı kitabları oxumusunuz?” - deyə şagirdlərdən biri soruşdu: “Bizim kənddəki evimizdə taxtadan düzəldilmiş bir kitab rəfi vardı. Orada çoxlu kitab var idi. Bacılarım yaxşı qiraətçi idilər. Onlar uzun qış gecələrində “Koroğlu”, “Dədə Qorqud” dastanlarını və başqa əsərləri bərkdən oxuyurdular, biz də qulaq asırdıq. Mən kitab mühitində böyümüşəm”.

“GÖRDÜYÜNÜZ HƏR BİR İŞİN ARXASINDA MÜTLƏQ BİR MİSSİYA OLMALIDIR”

“Həyatda bizim əsas missiyamız nə olmalıdır?” - deyə soruşan şagirdə Ş.Xuduoğlu “Gördüyünüz hər bir işin arxasında mütləq bir missiya olmalıdır” cavabını verdi: “Mən ona görə həkim olacağam ki, atamın gözləri görmürdü. Mən insanlara kömək etmək istəyirəm”, “Ona görə yaxşı futbolçu olacağam ki, Messidən yaxşı oynayım” və s. deyə biləsiniz. Hazırda ən böyük missiyanız dərslərinizi yaxşı oxumaq, mütaliə etmək, biliklərə yiyələnmək, dünyada baş verən yenilikləri araşdırmaqdır. Mütləq gördüyünüz işin arxasında missiya olsun. Biz niyə 44 günlük müharibədə qalib gəldik? Çünki bütün cəmiyyət eyni istiqamətə fokuslanmışdı”.

Əcnəbi turistləri regionlara NECƏ YÖNƏLTMƏLİ?

Ölkəmizdə şəhər turizmi kənd turizmindən xeyli irəlidədir. Əcnəbi turistlər bir qayda olaraq, gəzmək, tarixi yerlərlə, fərqli mədəniyyətlə tanış olmaq, həmçinin əylənmək arzusu ilə ailələri və uşaqları ilə daha çox paytaxt Bakıya səfər edirlər. Regionlardakı əcnəbi turistlərin sayı paytaxta nisbətən azdır.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Dövlətlər əyalətləri inkişaf etdirmək üçün müxtəlif səviyyələrdə səylər göstərirlər. Araşdırmalara görə, paytaxt şəhərlər ən çox səyahət edilən istiqamətlər olsa da, bu, get-gedə zövqə görə dəyişir. Artıq dünya ölkələri turistləri paytaxtda cəm etmək siyasətindən uzaqlaşaraq onların ölkə üzrə səyahətlərinin təşkilinə yönələn proqramlar həyata keçirirlər. Bu siyasət təkcə bölgə turizminin inkişafına dəstək olmur, həmçinin ölkənin bütün marşrutlar boyunca tanınmasına, təbliğinə xidmət edir. Nəticədə yeni iş yerləri yaranır, büdcəyə vergi daxilolmaları artır və s.

Heç şübhəsiz, turistin diqqət və istiqamətini paytaxtdan regiona yönəltmək üçün təkcə tarixi memarlıq, zəngin mədəniyyət və ya rəngarəng mətbəx deyil, yaxşı infrastruktur - yeni yollar, hotellər, dayanacaqlar, emalatxanalar, kafe və restoranlar, təmiz sanitar qovşaqlar və s. xidmətlər də olmalıdır.

Amma hələlik ölkəmizdə şəhər turizmi kənd turizmindən xeyli irəlidədir. Əcnəbi turistlər bir qayda olaraq, gəzmək, tarixi yerlər, fərqli mədəniyyətlə tanış olmaq, həmçinin əylənmək arzusu ilə daha çox paytaxt Bakıya səfər edirlər.

Vüqar Bayramov

RƏQABƏTİN GÜCLƏNDİRİLMƏSİNƏ EHTİYAC VAR

Millət vəkili Vüqar Bayramovun "Facebook" sosial şəbəkə hesabında paylaşdığı "bölgələrimiz xarici turist cəlb etməkdə paytaxt hotellərinə yenə də uduzurlar" fikirləri ölkəmizdə şəhər turizminin region turizmini üstələdiyi fikrini yenidən gündəmə gətirir: "Hələ də Azərbaycana gələn turistlərin böyük əksəriyyəti yalnız Bakıda qalmağa üstünlük verir". Millət vəkilinin fikrincə, paytaxtın infrastrukturunu nəzərə aldıqda bu, normal qarşılana bilsə də, regional gecələmə sayında fərqin böyük olması diqqətdən kənarda qalmamalıdır: "Təəssüf ki, hələ də bölgələr turizm potensialını tam təqdim edə bilmirlər və bu da xarici turist cəlbində çətinlik yaradır. Digər tərəfdən, əksər rayonlarda turizm xidmətlərinin qiyməti yüksək olaraq qalmaqdadır. Nəticədə, bölgələrimizin böyük turizm potensialından tam istifadə olunmur. Bu isə o deməkdir ki, bölgələrin turizm imkanlarının reinteqrasiyası üçün işlər sürətləndirilməlidir". V.Bayramov hesab edir ki, bölgələrdə turizm sektoruna daha çox sərmayənin cəlb edilməsi və rəqabətin gücləndirilməsi əsas hədəflərdən olmalıdır.

DAHA YAXŞI İNFRASTRUKTUR YARANMALIDIR

Ölkəmizin regionları turizmin inkişafı üçün əsl "qızıl mədəni"dir: gözəl mənzərələr, nadir tarixi abidələr, orijinallığını qoruyub saxlayan qəsəbələr, kəndlər, şəhərlər... Amma bu gözəl potensialdan tam istifadə olunurmu? Nəzərə alsaq ki, iqtisadiyyatın bir çox sahələri birbaşa və ya dolayısı ilə turizmlə bağlıdır, onda bu sahədə yeni inkişaf proqramları hazırlamağın vaxtının çoxdan çatdığına əmin olarıq.

Azərbaycan Hotellər Assosiasiyasının baş icraçı direktoru Günay Sağlam da xarici qonaqların sayının rayonlarla müqayisədə Bakıda daha çox olduğunu təsdiqləyir: "Bu məsələdə infrastruktur böyük rol oynayır. Həmçinin logistika mühüm əhəmiyyət kəsb edir. Regiona getmək üçün əvvəl Bakıya gəlmək lazımdır, daha sonra oraya maşın, avtobus və ya qatarla gedilə bilər. Turistik regionlarda yalnız hotellərin olması ilə iş bitmir, daha yaxşı infrastruktur yaranmalıdır. Rayonlarda təbii ki, gəziləcək və görüləcək çox yer var".

Günay Sağlam

SƏRHƏDLƏR AÇILANDAN SONRA TURİSTLƏR ARTACAQ

Ekspertlər hesab edirlər ki, turistlərin diqqətini cəlb etmək, onların tələb və istəklərini təmin etmək üçün bazarımızda rəqabətədavamlı məhsullar yaratmalıyıq. Turizm üzrə ekspert Müzəffər Ağakərimov bölgələrdə daha çox 2-3 ulduzlu hotellərin tikintisinə ehtiyac olduğunu bildirir: "Bölgələrin digər üstünlüyü indiki mövsüm üçün gözəl təbiətə malik olmasıdır. Xüsusən şimal-şərq və şimal-qərb rayonları - Zaqatala, Şəki, Qəbələ, Oğuz, İsmayıllı və cənub zonasının hotellərində boş otaq tapılmır. Düzdür, əsasən yerli turistlərdir. Nəzərə almaq lazımdır ki, həm şimal, həm də qərb zonasından quru yollar da bağlıdır. Sərhədlər açılandan sonra xarici turistlərin də ayağı açılacaq". Turizmçinin sözlərinə görə, yerli turizm şirkətləri öz turpaketlərinə bölgələri də daxil ediblər: ".Təbii ki, şəhərdə daha çox əcnəbi turist var. Bunun da əsas səbəbi hava limanının Bakıda olması ilə bağlıdır. Bölgələrdə əlavə hotellər inşa olunmalıdır. 2-3 ulduzlu hotellərin olması vacibdir".

Turizmçinin fikrincə, brend hotellərin 2-3 ulduzlu tipləri var ki, onların da inşasını bölgələrdə qurmaq və turistləri cəlb etmək olar: "Bir ara hostellərin fəaliyyəti geniş yayılmışdı. Bunları da təbliğ etmək lazımdır. Kütləvi turizmin inkişafında 2-3 ulduzlu hotellərin rolu böyükdür. Dünya turizminin inkişaf etdiyi Türkiyə, İspaniya, Fransa kimi ölkələrdə təkcə konqres turizmi deyil, eyni zamanda kütləvi turizm də inkişaf edir. Fikrimcə, marketinqin tələbatı və təklifi bizim ölkəmizdə də buna imkan verəcək. Sadəcə, biz bir az geci-kirik".

Müzəffər Ağakərimov

ELEKTROMOBİL SAHİBLƏRİNİN ÜZLƏŞDİYİ PROBLEM

Elektriklə işləyən avtomobillərin sayı artsa da, enerji doldurmaq üçün olan imkanlar məhduddur. Bakıda bu problem qismən həllini tapsa da, rayonlarda vəziyyət daha acınacaqlıdır. Ekspertlər problemdən çıxış yolu olaraq təkliflər irəli sürürlər.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Dünyada və Azərbaycanda elektromobillərə maraq artır. Hər il ölkəyə idxal olunan elektriklə işləyən avtomobillərin sayında sürətli artım müşahidə edilir. Lakin şarj aparatları (enerji doldurma aparatları) ilə bağlı problemlər hələ də qalmaqdadır. Bəzi küçələrdə səkilərə belə aparatlar quraşdırılıb. Lakin yolun kənarında saxlanılan maşınlar elektrik avtomobillərinə şarj aparatından istifadə etməyə imkan vermir. Bəs enerji doldurma aparatları harada quraşdırılmalıdır? Ölkəmizdə elektromobil sahibi olanlar başqa hansı problemlərlə üzləşirlər?

BAKIDA PROBLEMLƏR HƏLLİNİ TAPIR

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının nümayəndəsi Eyyub Əliyev dedi ki, bu sahədə əsas problem rayonlardadır: "Ən böyük problemlərdən biri enerji doldurma məntəqələri ilə bağlıdır. Bakıda ticarət mərkəzlərində, bir çox restoranlarda, hətta yeni yaşayış komplekslərinin dayanacaqlarında özəl sektor nümayəndələri tərəfindən şarj məntəqələri quraşdırılıb. Yanacaqdoldurma məntəqələrində enerji doldurma stansiyaları da fəaliyyət göstərir. Əsas problem bölgələrə gedərkən yolüstü məntəqələrin olmaması, yaxud məhdudluğudur. Bakıda bu problem həllini tapır. Yanacaqdoldurma məntəqələrinin demək olar ki, hamısında bu aparatlar var".

E.Əliyevin sözlərinə görə, küçədə quraşdırılan aparatlara nəzarət etmək mümkün deyil: "Elektrikli avtomobillərin çox istifadə olunduğu xarici ölkələrə baxdıqda, orada da küçələrdə kiçik şarj məntəqələri quraşdırılır. Ticarət mərkəzilərində, böyük tikinti layihələrinin dayanacağında xüsusi yerlər ayrılıb. Kənar maşınların orada saxlamamasına nəzarət olunur. Amma küçədə quraşdırılan aparata nəzarət mexanizmi bir az çətindir".

Eyyub Əliyev

ÖZƏL SEKTOR DAHA ÇOX MARAQLI OLDU

E.Əliyev bildirdi ki, aparatların sayı ilə bağlı rəsmi statistika yoxdur: "Bu iş tam dövlət tərəfindən həyata keçirilmir. Ona görə, qurumlarda statistika da olmur. Kimsə bina tikib, kompleksin dayanacağına aparat yerləşdiribsə, heç bir quruma məlumat təqdim etmir. Aparatların quraşdırılmasını dövlətdən gözləyirdik. Amma özəl sektor daha çox maraqlı oldu". Müsahibimiz qeyd etdi ki, dövlət tərəfindən də layihələndirmə işləri gedir. Gələn ilin əvvəllərində artıq dövlət tərəfindən quraşdırılan məntəqələri də çox sayda görə bilərik. Layihələndirən qurum qərar verəcək ki, harada yerləşdirmək lazımdır. Əsas məqsəd kifayət qədər doldurma məntəqəsinin olmasıdır".

NÖVBƏ GÖZLƏMƏK ÇƏTİNLİYİ

F.Axundov bildirdi ki, insanlar cüzi bir xərc çəkərək özlərinə doldurma stansiyası yarada və maşınlarını rahatlıqla şarj edə bilərlər: "Maşınların sayına görə aparatlar yetərli deyil. Həmin stansiyalara axşam getsəniz, görəcəksiniz ki, hamısında növbələr olur. Bəzi elektromobil istifadə edənlər buna məcburdurlar, çünki başqa şəraitləri yoxdur. Elə insanlar var ki, 3-5 gündən bir gedib stansiyalarda saatlarla maşınlarının şarj olmasını gözləyirlər. İkinci bir variant isə, əgər parkinq yeriniz varsa, özünüzə stansiya yaratmaqdır. Amma bir çox sürücülər bunun üçün pul xərcləmək istəmirlər. Elektromobilin doldurma üsulu fərqlidir. Benzin kimi tez doldurub, sürüb getmək mümkün deyil. Çünki bu maşınların batareyası böyük enerji tələb edir. O enerjini heç bir doldurma məntəqəsindən almaq mümkün deyil. Bu, saatlarla vaxt tələb edir. Dünya ölkələrində də bu maşınları istehsal edən şirkətlər tövsiyə edir ki, parkinq yerlərində stansiyalar quraşdırın. Burada özünüzə doldurma məntəqəsi yaratmış olursunuz. Axşamdan səhərə qədər maşınınız enerji yığır".

50 MANAT CƏRİMƏ TƏTBİQ EDİLSİN

Parklanma yerlərində quraşdırılan aparatlara da toxunan müsahibimiz qeyd etdi ki, cərimələr olsa, belə hallar yaşanmaz: "Əgər parklanmaya icazə verilirsə, orada aparatın quraşdırılması mümkündür. Lakin bu, qanunvericilik ilə tənzimlənməlidir. Elektromobil doldurma aparatlarının qarşısında daxili yanma mühərrikli maşınların saxlanılması qadağan edilməlidir. Adi parkinq qaydalarının pozulması 20 manatdırsa, o qadağa üçün cəza 50 manat olmalıdır".

"VƏTƏNDAŞ AVTOMOBİLİ İLƏ PROBLEM YAŞAMAQ İSTƏMİRSƏ..."

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərovun fikrincə, ölkəmizdə heç bir ehtiyat hissəsi, servis xidməti olmayan maşınları gətirməyə ehtiyac yoxdur: "Elektromobil doldurma məntəqələrinin azlığı problemini həll etmək üçün ötən il dövlətin qərarı ilə ölkəmizə idxal olunan enerji doldurma məntəqələrində istifadə olunan avadanlıq və cihazlar bütün gömrük rüsumlarından azad edildi. Bu qərar sahibkarlar həmin aparatları alsınlar, məntəqələrin sayı artsın deyə verilib. Əgər vətəndaş aldığı avtomobillə problem yaşamaq istəmirsə, ilk növbədə ölkəmizə gətirilməsinə icazə verilən, servisi, ehtiyat hissələri olan nəqliyyat vasitəsini almalıdır".

Eldəniz Cəfərov

Elektromobil və onun avadanlıqlarını satan Fəxri Axundov isə dedi ki, elektrik mühərrikli avtomobil sürən şəxslər texniki olaraq 2 problemlə üzləşirlər: "Birincisi, elektrik xəttinin parkinq yerinə çəkilməsi ilə bağlıdır. Ya parkinq yeri yoxdur, ya da yer var, amma elektrik çəkilməsinə MTK-lar icazə vermir. Maşın rahat enerji yığa bilsin deyə, parkinq yeriniz olmalıdır. Çünki elektromobil yanacaqdoldurma məntəqələri daimi istifadə üçün nəzərdə tutulmayıb. Hər binada isə belə şərait olmur. Bəzisində isə şərait var, lakin bina rəhbərliyi xəttin çəkilməsi ilə razılaşmır. Xarici ölkələrin qanunvericiliyində belə bir qayda var ki, yeni tikilən binalarda elektromobillərin enerji doldurması üçün yerlər olmalıdır. Həmçinin, qanun yanacaqdoldurma məntəqələrini də məcbur edir ki, maşınların enerji şarjı üçün şərait yaratsınlar. Bizdə isə bunlar mövcud deyil. İkinci problem isə rayonlarda doldurma məntəqələrinin olmamasıdır".

HƏM FAYDALI, HƏM TƏHLÜKƏLİ

Payız meyvələrinin şahı olan nar təbii qan-artırıcıdır. Yəqin elə bu səbəbdəndir ki, insanlar küçədə satılan nar şirələrinə xüsusi maraq göstərirlər. Ekspertlər isə düşünürlər ki, müəyyən qaydalara əməl etmədikdə küçədə hazırlanan bu şirələr insan sağlamlığı üçün təhlükəli də ola bilər.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Payız mövsümünün gəlişi ilə küçələrdə yerindəcə çəkilib plastik qablarda satılan nar şirələri ilə yenidən rastlaşırıq. Metrolara yaxın, insanların çox olduğu yerlərdə bu cür nar şirəsi satılan masaları görmək mümkündür. İnsanlar bu şirəni yerindəcə içə bilərlər. Lakin bir çox hallarda bu şirələr qablara yığılaraq da satılır. Nar şirələrinin bu şəkildə satılması nə dərəcədə doğrudur? Yalnız faydasını bildiyimiz bu meyvə şirəsi orqanizmimiz üçün zərərli ola bilərmi?

SATICILAR TİBBİ MÜAYİNƏDƏN KEÇMƏLİDİRLƏR

Qida məsələləri üzrə ekspert İlkin Şirinov deyir ki, nar şirələrinin küçə satışının qarşısını almaq mümkün olmayan bir həddə çatıb: "Artıq biz istəsək də, istəməsək də, küçə satışları var. Ancaq müəyyən hədlər olmalıdır. Gigiyenik normalara nə dərəcədə riayət edilib-edilmədiyinə diqqət etmək lazımdır. Bəzən istehlakçılar özləri də bu məsələlərə diqqət etmirlər. Ən azından satıcıya deyə bilərlər ki, "Ətrafı təmiz saxla". Qida təhlükəsizliyi baxımından müəyyən əlcəklərdən, sterilizə olunmuş qablardan istifadə olunmalı, satıcılar ən azından fəaliyyət göstərdikləri yeri təmiz saxlamalıdırlar. Təəssüf ki, istehlakçılarımız bu məqamlara etiraz etmirlər. Belə olan vəziyyətdə işbazların əli-qolu açılır".

İlkin Şirinov

SIXILAN KİMİ İÇİLMƏLİDİR

Ekspert bildirir ki, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (AQTA) müxtəlif tədbirlər, treninqlər təşkil edir. Hansı ki, satıcıların da həmin təlimlərdə, tədbirlərdə iştirakı vacibdir. Satıcılar müştərilərlə birbaşa ünsiyyətdə olurlar. Həmin satıcıların tibbi müayinələrinin olub-olmaması yoxlanılmalıdır. Satıcı həkim nəzarətindən keçibsə, yalnız bu halda qida sektorunda işləyə bilər.

İ.Şirinovun fikrincə, şirələrin günlərlə günəşin, havanın təsirinə məruz qalması düzgün deyil: "Nar şirəsini almaq da, içmək də faydalıdır. Çünki nar şirəsi turşularla zəngin olan məhsuldur, orqanizm üçün xeyirlidir. Amma nəzərə almalıyıq ki, şəkər xəstələri, allergik xəstələr var ki, onların nar şirəsi qəbul etməyi müəyyən risklər yaradır. Düzdür, nar şirəsi insanın immunitetini gücləndirir, qan dövranına yaxşı təsir edir, beyni qidalandırır. Amma nəzərə alınmalı müəyyən məsələlər də var. Məsələn, nar şirəsinin sıxılan kimi içilməsi tövsiyə olunur. Yəni günün altında qalması, hava ilə hər hansı təmasda olması tərkibində dəyişikliklərin olmasına gətirib çıxara bilər. Heç kim bundan sığortalanmayıb. Bu halda orqanizmdə hansı fəsadlar verəcəyini də kimsə bilə bilməz".

PLASTİK QAB TƏHLÜKƏSİ

Mütəxəssisin sözlərinə görə, sırf narın şirəsini içmək orqanizmə ziyanlı da ola bilər: "Nar şirəsinin su ilə qarışdırılıb içilməsi tövsiyə olunur. Çünki bu məhsul susuz diş minalarını zədələyə bilir. Yaxud nar şirəsini qəbul etdikdən sonra müəyyən miqdarda su içmək lazımdır. Diqqət olunmalı bir məsələ də var ki, nar şirəsinin sıxılıb doldurulduğu plastik qablara da nəzarət etmək lazımdır. Hansı ki, nar şirəsi çəkilir, həmin qablara doldurulur və piştaxtaların üzərinə düzülür. Baxılmalıdır ki, o plastik qablar neçənci dəfədir istifadə olunur. Yaxud bu plastik qablar haradan yığılıb".

BU MEYVƏNİN FAYDALARI HƏDDİNDƏN ARTIQ ÇOXDUR

Terapevt Fəxriyyə Əhmədova bildirir ki, antisanitariya şəraitində olan bütün məhsullar ziyandır: "Nar şirəsi əslində çox yaxşı içkidir. Ən azından, çox güclü antioksidantdır, qanyaradıcı sistemə stimulyasiyaedici, detoks təsiri göstərir. Bu meyvənin faydaları həddindən artıq çoxdur. Amma istənilən ərzaq nə qədər faydalı olursa-olsun, keyfiyyətli şəkildə hazırlanmadıqda zəhərə çevrilir. Ümumiyyətlə, küçədə antisanitariya şəraitində hazırlanan istənilən qida zərərlidir. Bu, nar şirələrinə də aiddir". F.Əhmədovanın sözlərinə görə, bu şirələr natəmiz şəraitdə toksik effektlərə səbəb ola bilər: "Biz bilmirik narlar nə dərəcədə yuyulur, qablar nə dərəcədə təmizlənir. Həmçinin şirə çəkiləndə çürük meyvələrdən də istifadə oluna bilər. Bəzən hətta nar dənələri tam təmizlənməyə də bilir. Bu hallar qida zəhərlənmələrinə, toksik effektlərə gətirib çıxarır. Hətta narlar təmiz olsa, çürük olmasa belə yuyulmaması təhlükəlidir. Belə natəmiz halda qabıqlı şəkildə şirəsi çıxarılıb satılır. Bu məhsulların küçədə satılması istənilən halda yolverilməzdir. Ona görə bacardıqca küçədən meyvə şirələri almaq əvəzinə, meyvəni alıb evdə şirəçəkən maşından keçirsələr, özləri hazırlayıb içsələr sağlamlıqları üçün faydası daha çox olar. Bu halda zərər görməzlər".

Fəxriyyə Əhmədova

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
Global Media Group
Baş redaktor
İlham Quliyev
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rufik İsmayılov, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov
Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2670
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

İXRAC bazarımızın qırmızı MEYVəSİ

İyul ayında ixrac edilən qeyri-neft sektoruna aid məhsulların siyahısında şaftalı birinci yerə çıxıb. Hazırda bağlardan şaftalının "Zolotoy", "Fədai" və "Nektarin" kimi tezyetişən sortları tədarük edilir. Meyvənin indiki qiyməti də təsərrüfatçıları qane edir.

İLHAMƏ ƏBÜLFƏT

2023-cü ilin iyul ayında ixrac edilən qeyri-neft sektoruna aid məhsulların siyahısında şaftalı birinci yerdə olub. Bu dövrdə 23 milyon dollar dəyərində şaftalı ixrac edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 8,2 milyon dollar və ya 55,4% çoxdur.

Şaftalının ixracda birinci olma səbəbi nədir? Gələcək üçün şaftalı bağlarının daha da artırılması mümkündürmü?

Qeyd edək ki, Nazirlər Kabinetinin 21 dekabr 2021-ci il tarixli müvafiq qərarı ilə ərik və şaftalı (nektarin) sığortalanan məhsullar sırasına daxil edilib. Nəticədə həmin məhsullara güzəştli sığorta mövcuddur. Aqrar sığorta ərik və şaftalı (nektarin) bağlarını dolu, sel, donvurma və digər təbii fəlakətlər olarsa, risklərdən qoruyur.

ÖLKƏYƏ ƏN ÇOX VALYUTA GƏTİRƏN MEYVƏ

Milli Məclisin deputatı Azər Badamovun sözlərinə görə, ölkəmizdə dövlət dəstəyi sayəsində aqrar sektor özünün inkişaf dövrünü yaşayır: "İnnovativ üsullarla əkilən bağlara xüsusi bir yanaşma var. Bu yanaşma bağların salınmasına verilən subsidiyaların kifayət qədər yüksək olması ilə bağlıdır. Ona görə də fermerlər intensiv bağların salınmasına üstünlük verirlər. Fermer əkin seçimində sərbəstdir. Amma intensiv bağçılığa xüsusi dəstəyin olması bu sahəni sürətlə inkişaf etdirir".

A.Badamov vurğulayıb ki, fermerlər bazarda hansı məhsula daha çox tələbat varsa, o məhsulu əkməkdə maraqlıdırlar: "Son illər Rusiya bazarında şaftalıya tələbatın çox olması fermerləri daha çox bu məhsulun bağlarının salınmasına stimullaşdırıb. Ona görə də 2023-cü ilin birinci yarısında şaftalı ixracı qeyri-neft məhsulları arasında birinci yerə çıxıb. Hesab edirəm ki, şaftalı bağlarının əkilməsi daha da artacaq".

50 FAİZDƏN ÇOX ARTIM DİNAMİKASI

İqtisadçı-ekspert Eldəniz Əmirov hesab edir ki, şaftalı bu ilin iyul ayında sadəcə müəyyən zaman kəsiyində rekord mövqeyə malik olub: "Ölkəmizdən ixrac edilən qeyri-neft sektoruna aid məhsulların siyahısında şaftalının birinci yerdə olmasının səbəbi mövsümi faktorla bağlıdır. Növbəti aylarda

həmin məhsulun ixracı iyul-avqust ayı kimi olmayacaq. İxrac icmalının bu ilin sentyabr ayının göstəricisinə baxsaq, görərik ki, ilk yerdə elektrik enerjisi, ikinci yerdə pomidordur".

Ekspert vurğulayıb ki, ümumilikdə şaftalının istehsalında artım dinamikası müşahidə edilir: "Bunun bir neçə səbəbi var. Səbəblərdən biri Nazirlər Kabinetinin 2021-ci il tarixli müvafiq qərarı ilə ərik və şaftalının sığortalanan məhsullar sırasına daxil edilməsidir. Bu qərarın qəbulundan sonra intensiv bağların yaradılması artıb. Nəticədə ixracın artımı baş verib. Ümumilikdə şaftalı məhsulunun ixracında 50 faizdən çox artım dinamikası var. Bu, müsbət haldır".

Azər Badamov

NEÇƏ HEKTAR ŞAFTALI BAĞI SIĞORTALANIB?

Aqrar Sığorta Fondunun nümayəndəsi Əli Əhmədovun sözlərinə görə, hazırda Azərbaycanda 45 hektar şaftalı bağı sığortalanıb:

"Bunlar - Ağdaş, Goranboy, Lənkəran, Qusar, Şabran, Şəmkir, Şəki rayonları ərazisindədir. Bütün bitkilərin sığortalanması zamanı aqrar sığorta haqqı əkin sahəsinin (və ya meyvə bağının) yerləşdiyi regiondan, əkin sahəsinin (və ya bağın) sahəsindən (yəni neçə hektardır), sahənin (və ya bağın) məhsuldarlığından və məhsulun qiymətindən asılıdır. Hesablanmış sığorta haqqının yarısını (50%) fermer, digər yarısını isə ona dəstək üçün dövlət ödəyir. Hadisə baş verdikdə ekspert sahəyə dəyən zərəri müəyyən edir və fermerə ödəniş edilir".

Ə.Əhmədov bildirib ki, Azərbaycanda hazırda 27 hektar nektarin bağı sığorta edilib: "Bağlar - Lənkəran və Qusar rayonları ərazisindədir".

Əli Əhmədov

XAÇMAZDA 20 MİN TONA YAXIN ŞAFTALI TOPLANILIR

Lənkəran Dövlət Universitetinin "Aqrar və mühəndislik" fakültəsinin müəllimi Nahid Əzizlinin sözlərinə görə, ölkəmizdə uğurlu iqtisadi siyasət nəticəsində digər sahələr kimi kənd təsərrüfatı da inkişaf etməkdədir: "Eyni zamanda 2004-cü ildən başlayaraq uğurla həyata keçirilən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində reallaşdırılan işlər öz növbəsində aqrar sahənin inkişafının yeni mərhələyə qədəm qoymasını şərtləndirib. Bunun nəticəsidir ki, artıq ölkəmizin bir sıra rayonlarında məhsuldarlıq yüksək səviyyəyə çatdırılıb. Aqrar sahəyə dövlət dəstəyinin əsas aləti aqrar subsidiyalardır. Bu baxımdan ayrı-ayrı rayonlarda əldə edilən nəticələr də deyilənləri təsdiqləyir".

Ekspert əlavə edib ki, bu il Xaçmaz rayonunun təsərrüfatçıları şaftalı bağlarından bol məhsul əldə ediblər: "Hazırda bağlardan şaftalının "Zolotoy", "Fədai" və "Nektarin" kimi tezyetişən sortları tədarük edilir. Meyvənin indiki qiyməti də təsərrüfatçıları qane edir. Xaçmaz rayonunda şaftalı bağları ən çox Nərəcan kəndi ərazisindədir. Burada 850 hektara yaxın meyvə bağında şaftalının 50-dən çox növü becərilir.

Yerli və paytaxt bazarlarında da satılan şaftalının böyük hissəsi isə qonşu Rusiya Federasiyasının müxtəlif şəhərlərindəki satış mərkəzlərinə göndərilir. Xaçmazda şaftalı yığımı oktyabr ayınadək davam edir. Ümumilikdə, Xaçmaz rayonunda 3 min hektara yaxın şaftalı bağı var ki, bunun da böyük hissəsi barverəndir. Hər il rayon bağlarından 20 min tona yaxın şaftalı toplanır".

Gözəlləşdirərkən ZƏHƏRLƏYƏN MADDƏLƏR

Müştəri ayda bir dəfə, usta hər saniyə zəhərlənir. Həkimlər bildirirlər ki, kimyəvi maddələr təkcə saçlarımıza yox, həm də ağciyərlərimizə və gözlərimizə də mənfi təsir göstərir. Ona görə də belə yerlərdə havanın təmizliyinə əməl edilməli və maska taxılmalıdır.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Qadınların daha çox istifadə etdikləri gözəllik prosedurlarından biri də saçlarını keratinlə düzləşdirmək və biozavivka buruqlardır. Bu prosedurlar kimyəvi maddələr vasitəsilə həyata keçirilir. Bu kimyəvi maddələr fenin istisi ilə birləşdikdə kəskin qoxu və buxar yaranır. Dəfələrlə salonlarda bu cür qoxulara məruz qalmışıq. Bu qoxular saça rəng qoyduqda, qulluq üçün prosedurlar həyata keçirdikdə, hətta saç laklarında da olur. Prosedur zamanı gözlərimiz, burnumuz qıcıqlanır, sulanır, bəzən nəfəs almaqda çətinlik çəkirik. Müştəri bunu ayda bir dəfə yaşasa da, ustalar daima işin içindədirlər və bu təsirə hər gün məruz qalırlar. Onlara bu qoxuların necə təsir etdiyini soruşanda isə deyirlər ki, "Nə edək, öyrəşmişik onsuz da. Zamanla müştərilər də öyrəşir". Bəs bu kimyəvi maddələrin saçlarımıza, ümumilikdə sağlamlığımıza hansı təsirləri var?

QALICI EFFEKT ƏLDƏ ETMƏK ÜÇÜN SAÇIN DAXİLİ STRUKTURUNU DƏYİŞİRLƏR

Trixoloq Cəmilə Əsgərova "Kaspi"yə açıqlamasında dedi ki, gözəllik salonlarında kimyəvi maddələrlə saçların strukturunu dəyişirlər: "Xüsusi losyon və spreylər ilə müvəqqəti buruqlar, düzləşdirmə əldə etmək olur. Amma bütün bu vasitələr ilk yumada təsirini itirir. Ona görə də qalıcı effekt əldə etmək üçün xüsusi kimyəvi reaksiyaların köməyi ilə saçın daxili strukturunu dəyişirlər. Kimyəvi maddələrlə burmaq, kimyəvi düzləşmə saç telinin disulfit əlaqəsini pozur. Xüsusi qələvi əsaslı serumlar saçın qabıq qatına çatıb onun disulfit təbəqəsini dağıdaraq təbii formasını zədələyir".



Cəmilə Əsgərova

BU MADDƏLƏRİN QEYRİ-DÜZGÜN VƏ HƏDDƏN ARTIQ İSTİFADƏSİ...

Həkimin sözlərinə görə, bu maddələrin saçlarımıza çox ciddi ziyanları mövcuddur: "Kimyəvi buruqlar sonrası saç uclarının, saçların zədələnməsi halları baş verir. Zədələnmə sonrası saçlar cansız, qısa, qırılan olur, saç ucları haçalanır. Düzləşdirmə zamanı daha çox qıvrım afro-amerikan saçları problem yaradır. Onlara daha çox vaxt tələb olunur ki, bu da saçların daha çox zədələnməsinə, qırılmasına səbəb olur. Əsas yan təsiri isə saç dərisinin yanığı, saçların qırılmasıdır. Düzləşdirmədə kimyəvi təsiri azaltmaq, yanıqlardan qaçmaq üçün prosedur öncəsi saç dərisinə vazelin vurmaq lazımdır. Bu kimyəvi maddələrin qeyri-düzgün və həddən artıq istifadə olunması saçın rəngsizləşməsinə, zəifləməsinə, saç dərisinin qıcıqlanmasına, qaşınmaya, kimyəvi yanıqlara, saç tökülməsinə, saç böyüməsinin ləngiməsinə, allergik reaksiyalara səbəb ola bilər. Ona görə də kimyəvi düzləşdiriciləri saç dərisinə sürtmək olmaz".

C.Əsgərova bildirdi ki, bu maddələr saçdan əlavə digər orqanlara da təsir edir: "Həssas insanlarda kəskin kontakt dermatit baş verə bilər. Bu zaman intoksikasiya fonunda allergik reaksiyalar, bronxial astma və kanserogenez yüksək risk daşıyır. Həmçinin gözün selikli qişasının da qıcıqlanmasına və yuxarı tənəffüs yollarının zədələnməsinə səbəb olur. Ona görə bu prosedur aparılan otaqda yüksək havalandırma olmalıdır".

ALLERGİK REAKSİYALARIN OLMAMASI DAHA TƏHLÜKƏLİDİR

Pulmonoloq Əsəd Beydullayev dedi ki, bir insan salona ayda iki dəfə gedəndə bu maddələrin təsirinə məruz qalırsa, salonda çalışan usta davamlı olaraq işin içindədir: "Əgər tənəffüs yollarında allergik reaksiya, həssaslıq varsa, kəskin boğulma, boğazda, gözdə qaşınma, qızartı, şişkinlik, öskürək, sinədə xışıltı, bəlğəm ifrazının artması kimi hallar meydana çıxır. Ən qorxulusu isə odur ki, bəzi şəxslərdə belə reaksiyalar olmur. Reaksiya olmadığı üçün bu havanı daha çox udur, o da ciyərlərinə gedir, həm üst, həm də alt tənəffüs yollarının divarlarını zədələyir, eyni zamanda, alveolların divarına çataraq qana da keçə bilir".

Ə.Beydullayevin fikrincə, bütün salonlarda ustalara təlimlər keçilməli, onlara maskanın vacibliyi anladılmalıdır: "Belə peşələrdə çalışan, zərərli qazlarla, tozlarla işləyən hamı maskalardan, texniki təhlükəsizlik tədbirlərindən istifadə etməlidir. Bu, onları gələcəkdə ağır ağciyər xəstəliyinə yoluxmaqdan və yaxud allergik reaksiyaların meydana çıxmağından qoruyacaq. İnsanın bütün orqanları vacibdir, amma tənəffüs sistemi xariclə əlaqəsi olan demək olar ki, yeganə orqandır. Hər nəfəs aldıqda daxili orqanlara, ağciyərlərə hava gedir".

Əsəd Beydullayev

NARAHATLIQLARIN SƏBƏBİ BU MADDƏLƏRDİR

Oftalmoloq Emil Yusifov bildirdi ki, saç məhsulları qıcıqlandıran və allergik reaksiyalara səbəb ola bilən komponentdən ibarətdir: "Allergik reaksiya hallarının çoxu parafenilendiamin (PPD) adlı maddəyə görədir. Parafenilendiamin durulaşdırıcı maddədir. Ən təbii saç boyası növlərindən biri olan xınaya da bəzən PPD əlavə olunur. Keratin və digərlərində də PPD maddəsi olur. Bu, həssas insanlarda allergik reaksiyalara gətirib çıxarır. Reaksiyaya səbəb olan bu maddənin buxarlarıdır. Allergiya əlamətlərinə baş dərisində, üzdə və ya boyunda sancma, yanma hissi, baş dərisinin və üzün qaşınması və ya şişməsi, gözün içində səpkilər, şişkin göz qapaqları, gözdə qızartı, qaşıntı, yanma hissi, dodaqların şişməsi, bədənin hər hansı bir yerində şiddətli, qızarıq səpkilər daxildir. Allergiya simptomları dərhal baş verə və ya ortaya çıxması 48 saat çəkə, yüngüldən ciddiyə dəyişə bilər. Qıcıqlanan nahiyə dərhal isti su, yumşaq sabun və ya şampun ilə yaxşıca yuyulmalıdır".

Emil Yusifov

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
14 OKTYABR ŞƏNBƏ 2023
www.kaspi.az

FUTBOLU UÇURUMDAN XİLAS CƏHDİ

2027-ci ildən sonra üçün planlaşdırılan sistem ən güclülərin mənafeyinə uyğundur. Avrokuboklarda iştirakçı sayı 54-ə qədər azalacaq. Super Liqada isə hər tur möhtəşəm oyunlar baş tutacaq. Bu isə, təbii ki, insanların turnirə marağında öz əksini tapacaq.

FAİQ TAHİROV

Avrokuboklarda hazırkı qrup formatı tarixin yaddaşına köçmək üzrədir. Daha doğrusu, bunun baş verəcəyi artıq dəqiqləşib. Növbəti mövsümdən Çempionlar Liqası, Avropa Liqası və Konfrans Liqasında adlarına uyğun olaraq liqa formatı tətbiq ediləcək.

DƏYİŞİKLİK MÜZAKİRƏLƏRƏ SƏBƏB OLUB

Növbəti mövsümdən hər üç yarışda 36 komanda çıxış edəcək. Avrokubokların əsas mərhələsində ümumi iştirakçı sayı 108 olacaq. Bu, hazırkı saydan 12 komandanın daha artıq olması deməkdir. Yarış liqa formatında start götürəcək və hər kollektiv səkkiz müxtəlif rəqiblə üz-üzə gələcək. Onlar bu görüşlərin dördünü evdə, dördünü səfərdə keçirəcəklər. Bundan sonra ümumi turnir cədvəli əsasında növbəti mərhələyə birbaşa yüksələnlər və pley-off iştirakçıları müəyyənləşəcək.

Yeni format özü ilə müxtəlif müzakirələr yaradıb. Bir yanaşmaya görə, liqa sistemində maraqlı oyunlar daha çox olacaq. Çünki komandalar səbətlərə bölünəcəklər və hər kollektiv hər bir səbətdən iki rəqiblə üz-üzə gəlməli olacaq. Hazırda qrup mərhələsində ən yüksək reytinqlilərin yer aldığı birinci səbət iştirakçılarının qarşılaşması mümkün deyil. Lakin yeni format onları da üz-üzə qoyacaq. Məsələn, növbəti mövsümdən "Bavariya" ilə "Mançester Siti"nin, yaxud "Liverpul"la "Real Madrid"in oyunlarını elə ilk turlardan izləyə biləcəyik.

Eyni zamanda bəzi nəhəng klubların pley-off və 1/8 finalda iştirak şansı da azalmış olacaq. İndiki formatda favoritlərin qrupdan çıxmaq ehtimalı yüksəkdirsə, liqa sistemində ən güclülər də bir-biri ilə üz-üzə gələcəyindən bəzilərinin kənarda qalmaq variantı az olmayacaq.

KÖHNƏ-YENİ SUPER LİQA İDEYASI

UEFA SUPER LİQA İŞTİRAKÇI SAYI 18-Ə ENDİRİLƏCƏK

AVROPA LİQASI İŞTİRAKÇI SAYI 18-Ə ENDİRİLƏCƏK

NAMİZƏDLƏR LİQASI İŞTİRAKÇI SAYI 18-Ə ENDİRİLƏCƏK

Liqa formatının 2027-ci ilə qədər tətbiq olunacağı dəqiqləşib. Şayiələrə görə, UEFA bunu uzun müddət davam etdirmək niyyətində deyil. 2027-ci ildən hazırkı üç turnirin yeniləri ilə əvəz edilməsi planlaşdırılır.

Məlumata görə, UEFA Super Liqa, Avropa Liqası və Namizədlər Liqası yaratmağı düşünür. Bu turnirlərin hər birində say yarıya qədər - 18-ə endiriləcək. Yarışlar arasında komandaların keçidləri baş tutacaq. Namizədlər Liqası və Avropa Liqası arasında dörd kollektivin düşüb-qalxması sistemi tətbiq ediləcək. Super Liqa ilə bağlı bu say ikiyə endiriləcək. Artıq oktyabrın sonunda qitə futbol qurumunun ideyanı ilkin olaraq müzakirə edəcəyi bildirilir.

Əslində, Super Liqa ideyası yeni deyil. Daha əvvəl Avropanın böyük klubları qitə futbol qurumundan müstəqil olaraq belə bir turnir yaratmaq qərarına gəlmişdilər. 2021-ci ilin aprelində format təsdiqlənmiş, rəsmi açıqlama verilmişdi. Ancaq UEFA-nın təzyiqlərindən sonra klublar bir-bir bu ideyadan uzaqlaşdılar. Yalnız İspaniyanın "Real Madrid" və "Barselona", İtaliyadan isə "Yuventus" uzun müddət dirəniş göstərdilər. Hazırda isə bu, aktuallığını demək olar ki, itirib. Köhnə-yeni format ideyasını basketboldakı Avroliqa və Avropa Kubokuna bənzətmək olar. Bu yarışlarda qitə basketbolunun elitası yarışır və ora kənardan daxil olmaq az qala mümkünsüzdür. Futboldakı yeni sistem də təxminən buna uyğun olacaq.

DƏYİŞİKLİYİ LABÜD EDƏN SƏBƏBLƏR

Ümumiyyətlə, son illər atılan addımların hər birinin arxasında maliyyə dayanır. Hər yeni yarış daha çox oyun, bu isə yekunda daha çox pul deməkdir. Son illərdə milli komandalar üçün Millətlər Liqasının yaradılması, Avropa çempionatında komanda sayının artırılması, klub yarışlarına Konfrans Liqasının əlavə edilməsinin əsas səbəbi məhz bu hesab edilir. Əlbəttə, burada daha çox ölkənin qitəmiqyaslı yarışlarda təmsil olunmasının mümkünlüyü də amillərdən biridir.

UEFA-nın qərarları bir çox hallarda futbolçuları, məşqçiləri razı salmır. Məsələ ondadır ki, oyunların sayı çoxdur, futbolçular az qala hər üç gündən bir meydana çıxmalı olurlar. Maliyyənin paylanması isə böyük klubları razı salmır. Onlar qitəmiqyaslı yarışlardan daha çox pay tələb edirlər.

Digər tərəfdən, bir çox mütəxəssis futbolun artıq maraqsızlaşdığı qənaətindədir. Artıq az qala bütün ölkələr avrokuboklarda təmsil olunurlar. Bu zaman aşağı səviyyəli kollektivlərin oyunları turnirlərin ümumi səviyyəsinin aşağı düşməsinə səbəb olur. Azarkeşlər daha rəqabətli matçlar arzulayır, ulduz oyunçuların üz-üzə gəlməsini istəyirlər. Hətta futbolun uçuruma getməsinin, cansıxıcılığının qarşısının alınması üçün oyun vaxtının bir saata qədər endirilməsi də müxtəlif vaxtlarda təklif olunub.

2027-ci ildən sonra üçün planlaşdırılan sistem ən güclülərin mənafeyinə uyğundur. Avrokuboklarda iştirakçı sayı 54-ə qədər azalacaq. Superliqada isə hər tur möhtəşəm oyunlar baş tutacaq. Bu isə təbii ki, insanların turnirə marağında öz əksini tapacaq. Yarışın maliyyəsi isə iştirakçı 18 komandaya nəsib olacaq. Bu da onların hazırkından bir neçə dəfə artıq qazanc əldə etməsi deməkdir.

Beləliklə, UEFA-nın yeni planını futbolu maraqsızlaşmaqdan xilas etmək cəhdi kimi də anlamaq olar. Eyni zamanda qitə futbol qurumu 2021-ci ildə anlayıb ki, böyük klublarla hesablaşmaq mütləqdir. Bir dəfə onların müstəqilləşməsinin qarşısını almaq mümkün oldu, ancaq növbətisində bu, alınmaya bilər.